

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 13 (753) ■ 8 aprel 2015 | www.vergiler.az | Qiyməti: 40 qəp.

# Azərbaycan Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 5-də Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfərə gəliblər. Dövlətimizin başçısını İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Əl Səud qarşılayıb.

Həmin gün Prezident İlham Əliyevin və Salman bin Əbdüləziz Əl Səudun görüşü olub. Söhbət zamanı Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub, əməkdaşlığın inkişafı baxımından bu səfərin əhəmiyyəti yüksək qiymətləndirilib. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etdiyinin və bir-birinə qarşılıqlı dəstək verdiyinin qeyd olunduğu görüşdə iqtisadi, xüsusilə neft-qaz, turizm, kənd təsərrüfatı sahələrində, eləcə də biznes dairələri arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri, qarşılıqlı sərmayə qoyuluşu ilə bağlı məsələlər müzakirə edilib. Görüşdə Səudiyyə Ərəbistanının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə həllinə tərəfdar olduğu vurğulanıb.



Ər-Riyadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığının Ticarət Palataları Şurasının sədri Əbdülrəhman Əl Zamil ilə görüşü olub. Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirilib. Söhbət zamanı neft və kimya sənayesi, neft-qaz, kənd təsərrüfatı məhsullarının birgə istehsalı, Səudiyyə Ərəbistanına və üçüncü ölkələrə ixracı imkanları ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycanın və Səudiyyə Ərəbistanının neft-kimya sənayesi şirkətləri arasında görüşlərin keçirilməsi ilə bu sahədə əməkdaşlıq imkanlarının araşdırılması məsələsi müzakirə olunub.

Azərbaycan Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının neft və minerallar naziri Əli Əl Naimi ilə də görüşüb. Görüşdə ikitərəfli əməkdaşlığın yüksək səviyyədə olduğu qeyd edil, Azərbaycan Prezidentinin Səudiyyə Ərəbistanı Krallığına səfərinin bu əlaqələrin daha da genişləndirilməsinə mühüm töhfə verəcəyi vurğulanıb. Söhbət zamanı dünya bazarında neftin qiyməti ilə bağlı da fikir mübadiləsi aparılıb. Həmçinin Səudiyyə Ərəbistanı şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün yaxşı imkanların olduğu qeyd edilib. Həmin şirkətlərin ölkəmizdə həm kontraktor, həm də investor kimi fəaliyyəti üçün əlverişli mühitin olduğu vurğulanıb, müxtəlif məsələlərə dair texniki təcrübə və məlumat mübadiləsinin həyata keçirilməsi, eləcə də «Cənub» qaz dəhlizi layihəsi ilə bağlı müzakirələr aparılıb.

Ər-Riyadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının maliyyə naziri İbrahim Əl Assaf ilə görüşüb. Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin və beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın iqtisadiyyat, infrastruktur və digər sahələrdə müxtəlif layihələrin həyata keçirilməsinə yaxşı imkan yaratdığı bildirilib. Hazırda yol tikintisi, su təchizatı və digər sahələrdə müxtəlif əməkdaşlıq layihələrinin həyata keçirildiyi qeyd edilib, bu istiqamətlərdə fəaliyyətin davamı olaraq sosial sahədə, irriqasiya, kənd təsərrüfatı, kanalizasiya və digər sahələrdə müxtəlif layihələrin reallaşdırılması ilə bağlı müzakirələr aparılıb.

Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri çərçivəsində paytaxt Ər-Riyadda görüşlərini başa çatdıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 6-da Ciddə şəhərində olublar. Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri İslam dünyasının əsas müqəddəs şəhəri Məkkədə ümrə ziyarətində olublar. Dövlətimizin başçısı və ailə üzvləri xüsusi libas geyinərək Əl-Həram məscidinə gəliblər. Azərbaycan Prezidenti və onu müşayiət edən şəxslər Kəbənin ətrafına dolanıblar, məsciddə namaz qılıblar. Sonra Səfa və Mərvə təpələrinin ziyarəti başlanıb. Azərbaycan Prezidenti və ailə üzvləri bu iki təpə arasındakı məsafəni yeddi dəfə qət ediblər. Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Kəbəyə daxil olub, burada namaz qılıblar.Ümrə ziyarəti başa çatdıqdan sonra dövlətimizin başçısı Əl-Həram məscidini seyr edib.

Prezident İlham Əliyev Ciddədə İslam İnkişaf Bankı Qrupunun prezidenti Əhməd Məhəmməd Əli ilə görüşüb. Görüşdə Azərbaycan ilə İslam İnkişaf Bankı arasında yüksək səviyyəli əməkdaşlıqdan məmnunluq ifadə edilib, son on ildə bank ilə ölkəmiz arasında səmərəli əməkdaşlığın qurulduğu, uğurlu layihələrin icra olunduğu bildirilib, Azərbaycanda gedən sürətli inkişaf proseslərinin əlaqələrimizin genişlənməsinə təkan verdiyi vurğulanıb. Azərbaycan ilə İslam İnkişaf Bankının neft-qaz, elektrik enerjisi, su təchizatı, yol tikintisi, infrastruktur layihələrinin icrası, kənd təsərrüfatı və sənaye, sərmayə qoyuluşu sahələrində nümunəvi əməkdaşlıq etdiyi diqqətə çatdırılıb. Söhbət zamanı ikitərəfli əməkdaşlığa digər tərəfdaşların da cəlb olunması ilə bağlı fikir mübadiləsi aparılıb.

## BƏƏ-nin vitse-prezidenti və Baş naziri ölkəmizə səfər edib

Aprelin 2-də Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin-Rəşid Əl-Maktum Azərbaycana rəsmi səfərə gəlib.



Rəsmi qarşılanma mərasimi başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin-Rəşid Əl-Maktumun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Azərbaycan Prezidenti bildirib ki, ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur: «Biz beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edirik. BMT və İslam Əməkdaşlıq Təşkilatında ölkənizin bizə göstərdiyi dəstəyə görə Sizə minnətdarıq. Azərbaycan da öz növbəsində hər zaman bütün beynəlxalq təsisatlarda Sizin ölkənizi dəstəkləyir. Ona görə də xalqlarımız arasındakı qardaşlığa əsaslanan güclü siyasi əlaqələr və fəal siyasi dialoq ikitərəfli tərəfdaşlıq üçün olduqca özəl format yaradır. Sözsüz ki, iqtisadi əməkdaşlıq və investisiya ilə əlaqədar məsələlər mühüm əhəmiyyət kəsb edir. Şadıq ki, Sizin Ticarət Palatanızın xaricdə ilk ofisi 3 il əvvəl Bakıda yaradılıb. Qarşılıqlı investisiyalar, müxtəlif layihələrin birgə icrası, birgə müəssisələrin yaradılması üçün yaxşı imkanlar var, xüsusilə də turizm sahəsində. Ümidvarıq ki, Sizin ölkənizdən də turistlər Azərbaycana daha tez-tez səfərlər edəcəklər».

Əlahəzrət Şeyx Məhəmməd bin-Rəşid Əl-Maktum isə bildirib ki, bu səfər əlaqələrimizi daha da genişləndirmək və yaxşılaşdırmaq üçün gözəl fürsətdir. Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq, iqtisadi sahədə əlaqələrin genişləndirilməsi perspektivləri, qarşılıqlı və birgə investisiyalar, turizm və digər məsələlər müzakirə olunub. Görüşdə regional təhlükəsizlik və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra Prezident İlham Əliyevin və Əlahəzrət Şeyx Məhəmməd bin-Rəşid Əl-Maktumun iştirakı ilə Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında sənədlərin imzalanması mərasimi olub. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Fövqəladə Halların, Böhranların və Fəlakətlərin İdarə Edilməsi Komitəsi arasında fövqəladə halların idarə olunması sahəsində Anlaşma Memorandumu, Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi ilə Birləşmiş Ərəb Əmirliklərinin Qiymətli Kağızlar və Əmtəə Komitəsi arasında yardım və qarşılıqlı əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

## «AITF-2015» Azərbaycan Beynəlxalq turizm sərgisi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 3-də Bakı Ekspo Mərkəzində «AITF-2015» XIV Azərbaycan Beynəlxalq turizm və səyahətlər, «HOREX Caucasus-2015» IX Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar, həmçinin «CIBS-2015» II Xəzər Beynəlxalq kater və yaxtalar sərgiləri ilə tanış olublar.*

Dövlətimizin başçısına sərgi barədə məlumat verilib. Bildirilib ki, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə keçirilən sərgi Dünya Turizm Təşkilatı, Azərbaycan Turizm Assosiasiyası və Beynəlxalq Turizm Sərgiləri Assosiasiyası tərəfindən dəstəklənir. Sərgiyə 42 ölkədən 371 şirkət qatılıb. Dövlətimizin başçısına Azərbaycanın turizm potensialı, turizm şirkətləri barədə məlumat verilib. Naxçıvan stendi ilə tanışlıq zamanı bildirilib ki, Muxtar Respublika burada 6 otel kompleksi ilə təmsil olunur. 1995-2015-ci illərdə Naxçıvana gedən turistlərin sayı 20 dəfədən çox artıb. Turizm sahəsinə göstərilən dövlət qayğısı, Bakı ilə yanaşı, regionlarda da müasir turizm infrastrukturunun yaradılması Azərbaycana gələn turistlərin sayının ildən-ilə artmasına səbəb olub. Ölkəmizin regionları da sərgidə geniş təmsil olunur. Burada bölgələrimizin turizm imkanları ilə bərabər milli adətlərimiz, mətbəximiz, tarixi abidələrimiz barədə ətraflı məlumat verilir.



Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «HOREX Caucasus-2015» IX Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgisi ilə də tanış olublar. Sərgidə Azərbaycan, İtaliya, Koreya Respublikası, Litva, Rusiya və Türkiyənin aparıcı şirkətləri iştirak edir. Sərgi iştirakçıları arasında dünyanın nüfuzlu şirkətləri də var. Ölkədə mehmanxana, restoran, idman kompleksləri və biznes mərkəzlərinin intensiv tikintisi ilə əlaqədar bu sərginin keçirilməsi olduqca aktualdır. Sərgidə dünyanın aparıcı şirkətlərindən olan «Lactalis» şirkəti də məhsullarını nümayiş etdirir. Dövlətimizin başçısı «CIBS-2015» II Xəzər Beynəlxalq katerlər və yaxtalar sərgisinə də baxıb. Sərgi Xəzər regionunda katerlər, yaxtalar, müxtəlif növ dəniz avadanlığı, yaxt-klublar, su idmanı, su nəqliyyatı və bu istiqamətdə digər sektorlarda fəaliyyət göstərən şirkətləri özündə birləşdirən yeganə ixtisaslaşdırılmış tədbirdir. İştirakçıların coğrafiyası Azərbaycan, ABŞ və Ukraynanı əhatə edir.

2 Vergi hüquqpozmalarına qarşı mübarizə gücləndirilir

3 Yeni qayda təsdiq edilib

4 Vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsi yüksəlir

5 Qiymətli kağızlar nağdsız ödəniş vasitəsi kimi...

# Vergi hüquqpozmalarına qarşı mübarizə gücləndirilir

*2015-ci ilin birinci rübü ərzində Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə 346 cinayət işi başlanmışdır.*

Həmin cinayət işlərindən 110-u vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə bağlı səyyar vergi yoxlamalarının nəticələrinə dair materiallar üzrə, 225-i vergi borcunun ödənilməməsi, 11-i əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilmə, aksiz markası olmadan malların satışı və saxlanılması ilə məşğul olma faktları üzrə operativ vergi nəzarəti tədbirlərinin nəticələrinə dair vergi orqanlarından daxil olmuş materiallar əsasında başlanmışdır.

Hesabat dövründə departamentdə cinayət işləri və materiallar üzrə aparılan araşdırmalar zamanı 13 milyon 72,1 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,9 dəfə çoxdur.

Departamentin İstintaq idarəsində 161 cinayət işi üzrə ibtidai istintaq tamamlanmış, 23 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilmişdir. 112 cinayət işi üzrə müəssisə rəhbərləri və fiziki şəxslər yayındırdıqları vergiləri (o cümlədən 16 iş üzrə külli miqdarda) ibtidai istintaq zamanı tamamilə ödədiklərinə görə cinayət işlərinə xitam verilmişdir. İstintaqı tamamlanmış cinayət işləri üzrə 39 nəfər barəsində 30 iş ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilmişdir. Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan edilmiş 9 nəfər şəxs tutularaq İstintaq idarəsinə təhvil verilmiş, ibtidai istintaqdan yayınan 55 şəxsin məcburi qaydada gətirilməsi, 77 şəxsin tapılaraq istintaqa gəlmələri, 71 şəxsin isə yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilmişdir.

Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklik göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakın siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 49 nəfər vergi ödəyicisi tapılıb müvafiq vergi orqanlarına təqdim edilmişdir.

# Operativ nəzarət tədbirləri

2015-ci ilin mart ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 5936 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkarlanmışdır. 849 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 181 vergi ödəyicisinin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 684 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edilmişdir. 201 vergi ödəyicisi tərəfindən 277 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 337 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 52 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış mallar olduğu müəyyən edilmişdir. Aşkar edilmiş nöqsanlarla bağlı müvafiq tədbirlər görülmüşdür.

# «ASAN xidmət» İtaliyada təqdim olunub

Azərbaycanın son illər sosial innovasiya, ictimai iştirakçılıq və vətəndaş cəmiyyətinin inkişafı sahəsində qazandığı nailiyyətlər bütün dünyada maraqla izlənilir. Ölkəmizin əldə etdiyi uğurları İtaliya ictimaiyyətinə təqdim etmək və qarşılıqlı təcrübə mübadiləsi aparmaq üçün martın 30-da Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və İtaliyanın «Vision» təşkilatı tərəfindən «Avropada mərkəzləşdirilmiş sosial xidmətlərin təşkili: «ASAN» nümunəsi» mövzusunda tədbir keçirilib. «Vision» təşkilatının direktoru Françesko Qrillonun apardığı tədbirdə beynəlxalq ekspertlər, vətəndaş cəmiyyətinin nümayəndələri, İtaliya ictimaiyyətinin təmsilçiləri iştirak ediblər.

Konfransda çıxış edən İtaliya Bələdiyyələrinin Milli Assosiasiyasının baş katibi Veronika Nikotra ölkəsində vətəndaşlara xidmət sahəsində yerli dövlət strukturlarının fəaliyyətindən, Avropa təcrübəsindən və innovativ üsulların tətbiqinin vacibliyindən danışıb.

Tədbirin əhəmiyyətini vurğulayan millət vəkili, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev qeyd edib ki, konfrans Azərbaycandakı elektron hökumət təcrübəsini müzakirə etmək və mövcud qarşılıqlı əməkdaşlığı paylaşmaq baxımından əlverişli imkan yaradır. Şura sədri şəffaflığın və ictimai xidmətlərin səmərəliliyinin artırılmasının dövlətin qarşısında duran əsas hədəflərdən sayıldığını bildirərək, son illərdə Azərbaycanda elektron hökumət sahəsində əhəmiyyətli irəliləyişlərin müşahidə olunduğunu vurğulayıb: «ASAN xidmət» modeli eyni çətir altında 30 dövlət xidmətini həyata keçirən Azərbaycanın uğurlu xidmət modelidir. Hazırda bu mərkəzlərin 6 milyondan artıq insana xidmət göstərə biləcək potensialı var».

İtaliyanın Piza şəhərinin meri Marko Filipeski Azərbaycanda fəaliyyət göstərən «ASAN xidmət» mərkəzlərinin iş prinsipinin təqdirəlayiq olduğunu bildirib. Vurğulayıb ki, əhaliyə daha yüksək səviyyəli xidmətin göstərilməsi üçün belə bir strukturun qurulması müsbət nəticələr verəcək.

Konfrans iştirakçılarına «Vision» təşkilatı tərəfindən hazırlanmış «Vətəndaşlarla dövlət arasında əlaqələrin təkmilləşdirilməsində ağıllı texnologiyalardan və yaradıcılıqdan istifadə: Azərbaycan modeli» mövzusunda hesabat təqdim olunub.

İtaliyanın Lessi bələdiyyəsinin İnnovasiya və Texnologiyalar Şurasının sədri Alessandro Delli ölkəsində «ASAN xidmət» kimi sistemin qurulmasının vacibliyini qeyd edərək Azərbaycanın bu sahədə əldə etdiyi təcrübənin əhəmiyyəti haqqında danışıb: «İtaliyada uzun müddətdir ki, bu cür innovativ xidmətin qurulmasına çalışsaq da, Azərbaycanın qısa müddətdə əldə etdiyi nəticələrə nail ola bilməmişik. Hesab edirəm ki, Azərbaycanın «ASAN» təcrübəsi bütün Avropa üçün nümunəvi model kimi təqdim edilməlidir».

Sonra Azərbaycanın «ASAN» təcrübəsinin nümunəvi model kimi istifadə edilməsi üçün İtaliya Milli Bələdiyyələr Assosiasiyasının Avropa İttifaqına rəsmi müraciəti qəbul edilib.

**F.İKRAMQIZI**

# Növbəti innovativ layihə: «Beynəlxalq Vergi İnformasiya Platforması»

*Qlobal iqtisadi inteqrasiya şəraitində müasir idarəetmə prinsipləri və metodlarının tətbiqi, innovativ texnologiyaların istifadəsi və elektron xidmətlər spektrinin genişləndirilməsi dövlətimizin daim diqqət mərkəzindədir.*

Ölkə başçısının verdiyi tapşırıq və tövsiyələrdə bu məsələlərin vacibliyi mütəmadi olaraq vurğulanır. Vergilər Nazirliyi ölkə Prezidentinin ən qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi barədə tapşırıqlarının icrası məqsədilə müxtəlif sahələr üzrə daim araşdırma və tədqiqatlar aparır. Bu da nəticədə informasiya texnologiyaları sahəsində ən innovativ metodlardan istifadə etməklə vergi sistemində unikal layihələrin həyata keçirilməsinə, ən qabaqcıl idarəetmə prinsiplərinin və metodlarının tətbiqinə, elektron xidmətlər spektrinin genişləndirilməsinə imkan yaradır.




Ötən ilin iyun ayında Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi tərəfindən vergi orqanı əməkdaşları üçün unikal bir yeniliyin - «Elektron kitabxana»nın istifadəyə verilməsi vergi əməkdaşlarının vergilərə dair istənilən məlumatı rahat əldə etməsinə və yeniliklər barədə daim məlumatlanmasına imkan yaratmış oldu. Yalnız bizim ölkəmizdə tətbiq olunan bu maarifləndirmə mənbəyini digər ölkələrin vergi orqanı əməkdaşları da böyük maraqla qarşılayırlar.

Bu ildən innovativ texnologiya prinsipləri əsasında hazırlanan daha bir layihənin - Beynəlxalq Vergi İnformasiya Platformasının (bvip.taxes.gov.az) tətbiqinə başlanılıb.

***Beynəlxalq təcrübə təhlil edilir***

Vergilər Nazirliyində xarici ölkələrin vergi sisteminin araşdırılmasına, ən qabaqcıl təcrübələrin tətbiqi imkanlarının qiymətləndirilməsinə və bunun nəticəsində xarici ölkələrin vergi sisteminin tədqiqinə xüsusi önəm verilir. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin iqtisadi, xüsusilə vergi sistemlərinin təhlilinə kompleks şəkildə yanaşılır və maraq doğuran parametrlər üzrə dəyərli məlumatları özündə əks etdirən ətraflı tədqiqat hesabatları hazırlanır. Bu hesabatlar xarici ölkələrin təcrübələrinin sistemli qaydada və müqayisəli şəkildə öyrənilməsinə, mütərəqqi və innovativ təcrübələrin aşkar olunmasına əlverişli imkan yaradır.

Qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və xarici ölkələrin vergi sistemlərinin müqayisəli təhlilinin aparılması məqsədilə Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi tərəfindən Beynəlxalq Vergi İnformasiya Platforması (BVİP) hazırlanıb. 1 il ərzində hazırlanan bu platforma mart ayından vergi əməkdaşlarının istifadəsinə verilib. Belə bir yeniliyin tətbiq olunmasında məqsəd dünyada mövcud olan üstün təcrübə və mütərəqqi metodların müəyyən edilməsi, beynəlxalq vergitutma sahəsində tendensiyaların izlənilməsinə texnoloji dəstəyin verilməsidir.

Platformanın strukturu iki əsas sistem üzərində qurulub: birinci sistem beynəlxalq təcrübə üzrə analitik təhlil və müqayisənin aparılmasına imkan verən «məlumat bazası və müqayisə aləti»nin istifadəyə verilməsidir. İkinci sistem beynəlxalq məsələlər üzrə «informativ baza»nın yaradılmasına və daim yenilənməsinə xidmət edir.

Platformanın missiyası müqayisəli standartlar əsasında ən yaxşı təcrübənin aşkar olunması və təhlili üçün innovativ platformanın yaradılması, vergi sisteminin funksional sahələri üzrə araşdırma və tədqiqatların aparılmasına imkan verən informasiya dəstəyinin təmin olunması, qabaqcıl beynəlxalq təcrübə və idarəetmə modellərinin tətbiqinin genişləndirilməsidir. Bundan əlavə, beynəlxalq və regional təşkilatlar, xarici ölkələrin vergi administrasiyaları barədə informativ bazanın formalaşdırılması və daim yenilənməsi, beynəlxalq əməkdaşlıq və innovativ layihələr barədə məlumatların sistemli qaydada ümumiləşdirilməsi və korporativ şəbəkə vasitəsilə istifadəyə verilməsi də platformanın missiyalarına daxildir.

Qeyd olunanlarla yanaşı, platforma hazırlanarkən vergilər sahəsində beynəlxalq inkişaf tendensiyasını xarakterizə edən analitik hesabatların və məlumatlar bazasının yaradılması, beynəlxalq təcrübənin öyrənilməsi və analitik təhlillərin aparılması üçün statistik məlumatlar bazasının imkanlarından səmərəli istifadə qarşıya əsas vəzifə kimi qoyulmuşdur.

***BVİP-in əhatə dairəsi genişlənəcək***

Platforma 10 əsas bölmədən ibarətdir: «Ölkələr üzrə məlumat», «Ölkələr üzrə müqayisə», «Beynəlxalq təşkilatlar», «Administrasiyalar», «Beynəlxalq vergi sazişləri», «Aİ qanunvericiliyi», «İnnovativ layihələr», «Əməkdaşlıq layihələri», «Beynəlxalq indekslər» və «Beynəlxalq tədbirlər».

BVİP-in məlumat bazasına Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi tərəfindən tədqiq olunmuş 18 ölkənin (Böyük Britaniya, İtaliya, Avstriya, Fransa, Niderland, Finlandiya, İsveç, Norveç, Belçika, Çexiya, Litva, Latviya, Estoniya, Sloveniya, Slovakiya, Türkiyə, Rusiya, Gürcüstan) və Azərbaycanın vergi sisteminə dair məlumatlar daxil edilmişdir. Baş idarə bu sahədə tədqiqatları davam etdirir və yaxın vaxtlarda digər ölkələrin də məlumatları platformaya daxil ediləcək.

**A.NƏBİYEVA**

# Dünyanın aparıcı şirkətləri Bakıda

## *Beynəlxalq sərgidə Vergilər Nazirliyi öz pavilyonu ilə təmsil olunub*

*Aprelin 2-də Bakı Ekspo Mərkəzində «AITF-2015» 14-cü beynəlxalq «Turizm və səyahətlər» sərgisinin rəsmi açılış mərasimi keçirilib. Tədbirdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirib ki, artıq 14 ildir keçirilən bu sərgi turizm sənayesi üzrə beynəlxalq görüş platforması rolunu oynayır.*



«AITF» sərgisi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Ümumdünya Turizm Təşkilatının (ÜTT), Azərbaycan Turizm Assosiasiyasının (AzTA) və Beynəlxalq Turizm Sərgiləri Assosiasiyasının (BTSA) dəstəyi ilə keçirilir. «AITF» sərgisi ilə paralel təşkil olunan 2-ci Xəzər Beynəlxalq Kater və Yaxtalar (ICIBS 2015») sərgisinə rəsmi dəstək isə Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası tərəfindən göstərilib.

Layihə rəhbəri, «AİTF» sərgisinin meneceri Xəyal Əliyeva bildirib ki, tədbirdə dünyanın 42 ölkəsindən 371 şirkət iştirak edir. Sərgi çərçivəsində 80-dək turizm istiqaməti təqdim edilir. Burada öz milli səyahət büroları və səfirliklərinin dəstəyi ilə Argentina, Bolqarıstan, İran, Gürcüstan, Dominikan Respublikası, Hindistan, Malayziya, Mərakeş, BƏƏ, Sloveniya, Tailand, Türkiyə və digər ölkələrdən ümumilikdə 17 milli qrup iştirak edir. İştirakçıların 60%-i xarici, 40%-i isə yerli şirkətlərdən ibarətdir».

Layihə rəhbəri keçən il 36 ölkənin qatıldığı sərgidə bu il 42 ölkənin iştirak etməsini qazanılan uğurun əlaməti kimi qiymətləndirib: «Asiya ölkələrindən daha çox diqqət hiss olunur. Bu il Maldiv adaları ilk dəfə sərgiyə qoşulub. Türkiyə daha çox şirkətlə iştirak edir. Bi il xaricdə daşınmaz əmlak və müalicəvi turizmlə bağlı yeni istiqamətlər də təmsil olunur. Sərgidə 35 tibbi turizm şirkəti iştirak edir».

Sərgidə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, eləcə də Azərbaycan Turizm Assosiasiyasının himayəsi altında iştirak edən yerli turoperatorlar müxtəlif təkliflər ilə çıxış ediblər. AzTA bu il sərgidəki stendini kifayət qədər genişləndirərək bölgələrdən aparıcı otel və turizm agentliklərini bir araya toplayıb. Sərgidə Qarabağ stendinin təqdim olunmasını isə xüsusi qeyd etmək lazımdır.

«İnfo Azərbaycan» stendinin təmsilçisi Aydan Cəfərova bu layihənin üç istiqamət - aplikeyşn, kataloq və veb-sayt vasitəsilə Azərbaycan haqqında hər şeyin bütün dünyaya tanıdılmasına xidmət etdiyini, artıq 300-dən çox şirkətlə müqavilələr bağlandığını bildirib.

Bu il sərgidə «Tibbi turizm» təmayülünü təmsil edən iştirakçıların sayı da nəzərəçarpacaq dərəcədə artıb. Azərbaycan, Almaniya, Çexiya, Yunanıstan, İsrail, Litva, Sloveniya, Slovakiya, Macarıstan və Türkiyəni təmsil edən şirkətlər, tibb mərkəzləri, eləcə də müalicə ocaqları və sanatoriyalar müalicə-sağlamlıq və SPA turizmi sahələrində əldə etdikləri ən son nailiyyətləri təqdim ediblər. Sərgidə 2015-ci il üzrə Azərbaycan üçün xaricdə daşınmaz əmlak bazarının ən aktual təklifləri də təqdim olunub.

IButik Travel» jurnalının baş redaktoru Vyaçeslav Sapunov Azərbaycan iqtisadiyyatı üçün turizmin böyük əhəmiyyətini qeyd edərək bildirnib ki, «AITF» sərgisi qarşıdan gələn mövsümdə ən maraqlı və yeni təmayüllərin anonsunu davam etdirir: «Bu il «AITF» sərgisi sayəsində Argentina, Avstraliya, Dominikan Respublikası, Keniya, Kolumbiya, Malayziya, Maldiv adaları, BƏƏ və Seyşel adaları kimi ekzotik turizm marşrutları yerli səyahət həvəskarları üçün daha da yaxın olacaq».

Qeyd edək ki, hər il olduğu kimi, bu il də Vergilər Nazirliyi öz pavilyonu ilə bu mötəbər sərgidə iştirak edib. Nazirliyin pavilyonu tədbir iştirakçılarının, xüsusilə xarici və yerli sahibkarların böyük marağına səbəb olub. Sərginin keçirildiyi üç gün ərzində Vergilər Nazirliyinin xidmət strukturlarının əməkdaşları tərəfindən vergi ödəyicilərini maraqlandıran suallara ətraflı cavab verilib, vergilər barədə məlumatlandırıcı, maarifləndirici materiallar və nəşrlər paylanılıb.

**FƏXRİYYƏ**

# Yeni qayda təsdiq edilib

Vergilər Nazirliyi Kollegiyasının qərarı ilə «İstismar zamanı nəzarət-kassa aparatının plombunun pozulduğu və başqa nasazlıqlar yarandığı müddətdə nağd pul hesablaşmalarının qeydiyyatının aparılması Qaydası» təsdiq edilib. Qayda istismar zamanı nəzarət-kassa aparatının plombunun pozulduğu və başqa nasazlıqlar yarandığı, habelə elektrik enerjisi ilə təchizat dayandırıldığı müddətdə nağd pul hesablaşmalarının qeydiyyatının aparılması qaydasını müəyyən edir.

Qaydaya görə, istismar zamanı nəzarət-kassa aparatının plombu pozulduqda və başqa nasazlıqlar yarandıqda vergi ödəyiciləri tərəfindən həmin nasaz NKA-dan istifadə edilməsi müvəqqəti (nasazlıq aradan qaldırılana qədər) dayandırılır. NKA-nın istismarı zamanı, plombun pozulması da daxil olmaqla, istənilən nasazlıq yarandıqda vergi ödəyicisi tərəfindən bu barədə təcili Servis Texniki Xidmət Mərkəzinə sifariş verilməlidir. Sifariş haqqında vergi ödəyicisi və ya onun bu işə məsul etdiyi şəxs tərəfindən «Nəzarət-kassa aparatına texniki xidmət kitabı»nda müvafiq qeydlər aparılır, Servis Texniki Xidmət Mərkəzinin rəhbəri tərəfindən imzalanır, möhürlə təsdiq edilir.

NKA-dan istifadə edilməsi müvəqqəti olaraq, yəni nasazlıq aradan qaldırılana və ya elektrik enerjisi ilə təchizat bərpa edilənə qədər dayandırıldığı müddətdə vergi ödəyicisinin fəaliyyət göstərdiyi obyektdə həyata keçirilən nağd pul hesablaşmalarının qeydiyyatı «Nəzarət-kassa aparatının işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabı»nda vergi ödəyicisi tərəfindən aparılır və Servis Texniki Xidmət Mərkəzinin rəhbəri tərəfindən imzalanaraq möhürlə təsdiq edilir. Qaydaya görə, nağd pul hesablaşmalarının qeydiyyatı «Nəzarət-kassa aparatının işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabı»nda aparılan zaman vergi ödəyicisi tərəfindən hər bir müştəridən alınmış nağd pul vəsaiti kitabın ayrıca sətrində yazılmaqla uçota alınmalıdır. Bu zaman qeydiyyatın aparıldığı sətirdə nağd pul məbləğinin alındığı tarix, vaxt, NKA-nın işləməməsinin səbəbi, satılmış malın adı, ölçü vahidi, bir vahidinin qiyməti, sayı və dəyəri mütləq göstərilməlidir. NKA-dan istifadə edilməsi müvəqqəti olaraq dayandırıldığı müddətdə vergi ödəyicisinin fəaliyyət göstərdiyi obyektə daxil olan malların qeydiyyatı «Nəzarət-kassa aparatının işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabı»nda vergi ödəyicisi tərəfindən aparılmalıdır.



Obyektə daxil olmuş malların qeydiyyatını «Nəzarət-kassa aparatının işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabı»nda aparan zaman, hər bir mal göndərəndən alınmış mal-material dəyərləri satış sənədinə uyğun olaraq, kitabda hər bir malın adı ayrıca sətirdə yazılmaqla uçota alınmalıdır. Bu zaman qeydiyyatın aparıldığı sətirdə malın alındığı tarix, vaxt, NKA-nın işləməməsinin səbəbi, alınmış malın adı, ölçü vahidi, bir vahidinin qiyməti, sayı və dəyəri mütləq göstərilir.

NKA-nın təmirinin başa çatması və aparatın vergi ödəyicisinə təhvil verilməsinə dair Servis Texniki Xidmət Mərkəzinin nümayəndəsi tərəfindən «Nəzarət-kassa aparatına texniki xidmət kitabı»nda müvafiq qeydlər aparıldıqdan və ya elektrik enerjisi ilə təchizat bərpa edildikdən dərhal sonra vergi ödəyicisi tərəfindən «Nəzarət-kassa aparatının işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabı»nda uçota alınmış nağd pul vəsaitlərinin məbləği malların çeşidi (görülmüş işlərin, göstərilmiş xidmətlərin növü) üzrə toplanaraq çeşidlər üzrə cəmi məbləğ, habelə həmin kitabda uçota alınmış mal-material dəyərləri ayrı-ayrılıqda hər bir mal çeşidi üzrə NKA-nın yaddaşına bərpa edilir. «Nəzarət-kassa aparatının işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabı»nda kitabdan istifadənin başa çatma tarixi və vaxtı qeyd olunan sətirdə müvafiq «dəyəri» sütunlarında NKA-ya bərpa edilən yekun məbləğlər göstərilməlidir. Bu zaman bərpa çeklərinin kitabın qeyd sütununda yapışdırılması təmin edilməlidir.

**AYTƏN**

# Bəyannamələrin təqdim edilməsi dövrü bir neçə gündən sonra başa çatır

*Cari ilin birinci rübü artıq başa çatmışdır. Vergi qanunvericiliyinə görə, vergi ödəyiciləri hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir. Vergi ödəyiciləri aprel ayının 20-dək bu prosesi başa çatdırmalıdırlar.*

Bəyannamənin vaxtında təqdim edilməməsinə və vergilərin vaxtında ödənilməməsinə və ya yayındırılmasına görə maliyyə sanksiyaları tətbiq edilir. Vergi Məcəlləsinin 57.1-ci maddəsinə əsasən, vergi hesabatını, habelə hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyat, əməliyyat olmadığı halda vergi orqanına vergi hesabatı əvəzinə arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Bundan başqa, verginin hesabatda göstərilən məbləği qəsdən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin 50%-i miqdarında maliyyə sanksiyası tətbiq edilir. Həmçinin vergi və ya cari vergi ödəməsi müəyyən edilmiş müddətdə ödənilmədikdə ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1%-i məbləğində faiz tutulur.

İnzibati Xətalar Məcəlləsinin 248-ci maddəsinə əsasən, dövlət rüsumunu tutan səlahiyyətli vəzifəli şəxslər tərəfindən dövlət rüsumunun düzgün tutulmamasına və ya dövlət büdcəsinə vaxtında və tam ödənilməməsinə görə 70 manatdan 90 manatadək cərimə tətbiq edilir. «Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

Bəyannamənin təqdimetmə (habelə verginin ödənilmə) müddətinin sonuncu günü qeyri-iş gününə düşdüyü halda, bəyannamə növbəti iş günü təqdim edilə bilər. Hesabat qanunvericiliklə müəyyən edilmiş hallarda vergi orqanı tərəfindən qəbul edilmədikdə hesabatın daxil olduğu gündən sonra üç iş günü ərzində vergi ödəyicisinə aşkar edilmiş dəqiqsizliklərin aradan qaldırılaraq vergi orqanına təqdim edilməsi barədə bildiriş göndərilir.

Vergi Məcəlləsinin 74.1-ci maddəsinə əsasən, hesabatın verilmə müddəti başa çatanadək vergi ödəyicisi gəlir vergisinin və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə müraciət edirsə və bu zaman ödənilməli verginin məbləği tamamilə ödənilərsə, hesabatın verilmə müddətinin üç ayadək artırılması mümkündür. Ancaq müddətin uzadılması verginin ödənilməsi vaxtını dəyişdirmir. Hesabat üzrə hesablanmış verginin məbləği ödənilmiş məbləğdən artıq olduqda yaranan fərq verginin ödənilməsinin son müddəti günündən hesablanan faizlər nəzərə alınmaqla büdcəyə köçürülür, az olduqda isə hesablanmış vergi və faiz məbləğləri azaldılır.

Hesablanmasından və ya tətbiq edilməsindən şikayət edilən verginin, faizlərin və ya maliyyə sanksiyasının məbləği hesablanmaya (tətbiq edilməyə) uyğun şəkildə ödənildiyi halda və şikayətin təmin edilməsi nəticəsində vergi, faizlər və ya maliyyə sanksiyası tamamilə, yaxud qismən ləğv edilərsə, vergi ödəyicisinin kompensasiya və ya həmin məbləğlərə görə faizlər almaq hüququ var. Bununla yanaşı, vergi ödəyicisi şikayətə baxılan müddət ərzində maliyyə sanksiyasını ödəməmək hüququna malikdir.

Vergi Məcəlləsinin 72.2-ci maddəsinə uyğun olaraq, vergi hesabatları vergi ödəyiciləri tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya elektron sənəd formasında) verilə bilər.

Vergi bəyannamələrinin elektron formada təqdim edilməsi üçün Vergilər Nazirliyinin rəsmi internet saytı - www.taxes.gov.az vasitəsilə xüsusi keçid və ya www.e-taxes.gov.az - İnternet Vergi İdarəsi, habelə nazirlikdə tətbiq edilən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) elektron bəyannamələrin qəbulu və işlənməsi üzrə xüsusi proqram təminatı yaradılmışdır.

Həyata keçirilən tədbirlər vergi bəyannamələrinin vaxtında təqdim edilməsinə və vergi öhdəliklərinin yerinə yetirilməsinə müsbət təsir göstərir. 2003-2004-cü illərdə bəyannamələrin vaxtında təqdim edilməsi səviyyəsi 70-75% təşkil etdiyi halda, 2014-cü ildə bu rəqəm təxminən 95% civarında olmuş, təqdim edilən bəyannamələrin 91,7%-dən çoxu isə elektron formada internet vasitəsilə göndərilmişdir.

**Rəşad SADIQOV**






Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Vergi mədəniyyəti və onun formalaşdırılması

Vergi ödəyiciləri ilə vergi orqanları arasında əməkdaşlığın yüksək səviyyədə qurulması, ilk növbədə, vergi münasibəti iştirakçılarının peşəkarlığına və qarşılıqlı məsuliyyətinə əsaslanan yüksək vergi mədəniyyəti ilə təmin edilir. Buna nail olmaq üçün vergi orqanlarının əsas vəzifələrindən biri vergi ödəyicilərinin qanuna əsaslanan davranışını təmin edən sistemli tədbirlər görülməsidir. Belə tədbirlərə misal olaraq xidmətlərin elektron qaydada həyata keçirilməsini, vergi hesabatlarının qəbulu mərkəzlərinin yaradılmasını, qaynar xətlərin təşkilini, kütləvi məlumatlandırma və təbliğat işlərinin görülməsini, izahedici bukletlərin, kitabçaların nəşr edilərək paylanmasını, məlumatların yayılması üçün audio və video texnikalarından geniş istifadə olunmasını və s. göstərmək olar. Bu tədbirlər həm vergi ödəyicilərinin, həm də vergi orqanı əməkdaşlarının qanuna əsaslanan davranışı üçün şəraitin yaranmasına xidmət edir.

Qeyd etmək lazımdır ki, cəmiyyətdə yüksək vergi mədəniyyətinin formalaşdırılmasında təkcə vergi orqanı əməkdaşları barədə müsbət təsəvvür yaradılması kifayət etmir. Vicdanlı vergi ödəyicisi nümunəsinin yaradılması da bu sahədə görüləcək başlıca vəzifələrdəndir. Buna görə də vergi münasibətlərinin tənzimlənməsi zamanı əsas diqqətin təkcə konkret subyektlərə yönəldilməsi yanlış olardı. Başqa sözlə, vergi münasibətlərindən hər hansı elementi ayırmamaqla ona kompleks şəkildə baxılması mühümdür. Çünki bu münasibətlərdə iştirak edən hər hansı tərəfin fəaliyyətinin nəzərdən qaçırılması və onun qanunazidd hərəkəti bütöv sistemin sabitliyini pozur və görülən tədbirlərin səmərəliliyini azaldır.

*Azərbaycanda yüksək səviyyəli vergi mədəniyyətinin formalaşması Vergilər Nazirliyinin qarşısında duran əsas vəzifələrdəndir*

Buradan belə nəticəyə gəlmək olar ki, yüksək vergi mədəniyyətinin formalaşdırılması kifayət qədər mürəkkəb prosesdir və nəzəri olaraq aşağıdakıları tələb edir:

- yüksək peşəkarlığın təminatı;
- səmərəli vergi nəzarəti xidmətinin yaradılması;
- qanuna əməl olunmanın yüksək səviyyədə olması.

Təcrübə göstərir ki, dünyanın bütün ölkələrində fiziki şəxslər vergi sahəsində ən çətin nəzarət olunan kateqoriyaya aiddir. Lakin bütövlükdə götürəndə, dünyanın əksər ölkələrinin, həmçinin Azərbaycanın vergi sistemində vergi ödəyicisi olan fiziki şəxslərlə bağlı qanunvericilik normaları kifayət qədər sadələşdirilmişdir və bu, vergi ödəyiciləri arasında vergi mədəniyyətinin formalaşdırılmasında müsbət rol oynayır.

Qeyd etdiklərimiz bu qənaətə gəlməyə əsas verir ki, vergi sisteminin inkişaf səviyyəsinin yüksəldilməsinə cəmiyyətdə vergi mədəniyyətinin yüksək olması hesabına nail oluna bilər. Vergi mədəniyyəti təkcə vergi ödəyicilərinin deyil, həm də vergi orqanlarının vəzifəli şəxslərinin davranışını tənzimləyən alət kimi çıxış etməlidir. Vergi münasibətlərinin hər bir subyekti müstəqil olaraq vergi qanunvericiliyi çərçivəsində davranmaqla vergi mədəniyyəti səviyyəsini nümayiş etdirir. Ümumiyyətlə, vergi mədəniyyətinin səviyyəsi vergi ödəyiciləri tərəfindən öz hüquq və vəzifələrini hansı səviyyədə başa düşmələri və onlara necə əməl olunması ilə ölçülür. Hər bir vergi ödəyicisi bilməlidir ki, vergilərin ödənilməsi ilk növbədə dövlətin öz funksiyalarını (ordunun, məhkəmə və hüquq-mühafizə orqanlarının saxlanması, təhsil, səhiyyə xidmətlərinin göstərilməsi və s.) yerinə yetirməsi üçün tələb olunur.

Vergi mədəniyyətinin formalaşması vergi ödəyicilərinin vergi intizamının sistemli şəkildə gücləndirilməsi, onların mənəvi və maliyyə imkanlarının inkişafı nəticəsində baş verir ki, bu da dövlət büdcəsinə ödənilməli vergilərin tam və vaxtında büdcəyə köçürülməsinə təminat yaradır. Vergi ödəyicilərinin öz davranışlarında qanunun tələblərinə tabe olmaları onların vergi orqanları əməkdaşları ilə münasibətlərindən də asılıdır. Bu münasibətlər düzgün qurulmadıqda vergi mədəniyyətinin pozulması baş verir, nəticədə vergi orqanları ilə vergi ödəyiciləri arasında problemlər yaranır. Bu da öz növbəsində vergilərin tam və vaxtında dövlət büdcəsinə ödənilməsinə mənfi təsir göstərir.

Azərbaycanda yüksək səviyyəli vergi mədəniyyətinin formalaşması Vergilər Nazirliyinin qarşısında duran əsas vəzifələrdəndir. Bu vəzifənin yerinə yetirilməsi üçün vergi orqanları tərəfindən ardıcıl və məqsədyönlü tədbirlər görülür. Vergilər Nazirliyinin rəsmi internet səhifəsində vergi qanunvericiliyinə dair normativ-hüquqi aktlar, vergi ödəyicilərinin uçotu, vergi hesabatlarının formaları, onların doldurulma qaydaları və digər zəruri məlumatlar göstərilməklə vergi ödəyicilərinin qanuna əsaslanan davranışının təmin edilməsinə şərait yaradılır. Kütləvi informasiya vasitələrində vergi maarifləndirilməsi və təbliğatı ilə bağlı işlər görülür, qanunvericiliyin izahı ilə bağlı kitablar, bukletlər buraxılır, vergi ödəyiciləri ilə görüşlər, seminar və konfranslar keçirilir, regionlarda vergi ödəyicilərinə xidmət mərkəzləri fəaliyyət göstərir və s. Vergilər Nazirliyinə təkcə fiskal bir orqan kimi deyil, həm də vergi ödəyicilərinə hər zaman metodiki kömək göstərməyə hazır olan və onların vergi risklərini minimallaşdırmağa çalışan bir qurum kimi də baxmaq olar. Görülən tədbirlər son nəticədə yüksək vergi mədəniyyətinin formalaşmasına və vergi sisteminin səmərəliliyinin daha da artırılmasına xidmət edir.

# Güzəştli kreditlər hesabına yaradılan sənaye müəssisələri məhsul ixracına başlayıb

Sahibkarlığa Kömək Milli Fondu Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə dair işgüzar forum keçirib. İqtisadiyyat və Sənaye Nazirliyindən bildiriblər ki, əsas məqsəd sahibkarlara güzəştli kreditlərin alınması mexanizmi barədə ətraflı məlumatların verilməsi, Suraxanıda həyata keçirilməsi məqsədəuyğun hesab olunan nümunəvi layihələrin təqdim olunması, sahibkar-müvəkkil kredit təşkilatı münasibətlərinin möhkəmləndirilməsi, sahibkarların investisiya layihələrinin maliyyələşdirilməsidir.

Səksənə yaxın sahibkarın iştirak etdiyi işgüzar forumda Suraxanı rayonunun iqtisadi potensialının reallaşdırılması məqsədi ilə prioritet hesab olunan ixtisaslaşdırılmış «yaşıl market»in, istixana və zeytunçuluq təsərrüfatlarının, ət kəsimi, plastik qapı-pəncərə, üzlük daş və corab istehsalı müəssisələrinin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı olub, sahibkarlara nümunəvi layihələr və metodiki materiallar paylanıb.

Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev qeyd edib ki, 2015-ci ilin ötən dövrü ərzində ölkə üzrə 1229 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 37,2 milyon manat güzəştli kredit yönəldilib. Bu kreditlər hesabına maliyyələşdirilən layihələrin reallaşdırılması 2800-ə yaxın yeni iş yerinin yaradılmasına imkan verir. Ümumilikdə, indiyədək Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində paytaxt qəsəbələrində sahibkarlıq subyektlərinin 1000-dən çox investisiya layihəsinin maliyyələşdirilməsinə 219,6 milyon manat güzəştli kredit verilib, digər sahələrlə yanaşı, müasir texnologiyaların tətbiqinə əsaslanan çörək zavodları, istixana kompleksləri, quşçuluq təsərrüfatları, ət emalı, metal konstruksiya istehsalı və digər sənaye müəssisələrinin yaradılması üzrə investisiya layihələri maliyyələşdirilib.

İşgüzar forum çərçivəsində müvəkkil kredit təşkilatları vasitəsilə 18 sahibkarlıq subyektinə 5,2 milyon manat kredit verilib. Verilmiş kreditlər əsasən heyvandarlıq, tərəvəzçilik, quşçuluq, elektrotexniki avadanlıqlar, mebel, plastik qapı-pəncərə istehsalı və digər sahələrə yönəldiləcək. Bu kreditlərin reallaşdırılması 200-dən çox yeni iş yerinin yaradılmasına imkan verir.

Forum çərçivəsində Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində dövlətin güzəştli krediti ayrılmış transformator və müxtəlif növ elektrotexniki avadanlıqlar istehsalı zavodunun son tamamlama və yeni zavodun tikintisi ilə bağlı hazırlıq işlərinə baxış təşkil edilib. Mövcud istehsal sahəsində istehsal olunan məhsullar əsasən, Kanada, Rusiya, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Ukrayna, İraq, Bəhreyn və Cənubi Afrika Respublikasına ixrac olunur. Burada ildə 3400 ədəddən çox müxtəlif növ elektrotexniki avadanlıqlar istehsal edilir. Yeni zavod istifadəyə verildikdən sonra müəssisənin müxtəlif növ elektrotexniki avadanlıqlar üzrə illik istehsal gücü 10 min ədədi ötəcəkdir.

# Geni dəyişdirilmiş bitkilərin ölkəyə gətirilməsinə nəzarət sərtləşdirilir

Milli Məclisin Aqrar siyasət komitəsində Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə bir sıra dəyişikliklərin və yeni maddələrin əlavə edilməsi ilə bağlı məsələlər müzakirə edilib. Komitə sədri Eldar İbrahimov qanun layihələri haqqında məlumat verərkən bildirib ki, Cinayət Məcəlləsinə 200.2-ci (Genetik modofikasiya olunmuş bitkilərin, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarının qanunsuz dövriyyəsi) maddə əlavə ediləcək. Bu maddənin birinci hissəsinə əsasən, elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan genetik modifikasiya olunmuş bitkiləri, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarını və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarını bilə-bilə idxal etmək, satmaq xeyli miqdar təşkil edəndə 3 min manatdan 5 min manata qədər cərimə və ya 2 ilə qədər azadlıqdan məhrumetmə cəzası tətbiq ediləcək.

Cinayət Məcəlləsinin 200.2-ci maddəsinin ikinci hissəsində isə bildirilir ki, elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan genetik modifikasiya olunmuş bitkiləri, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarını və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarının istehsalı 4 min manatdan 6 min manata qədər cərimə və ya 3 il azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

Maddənin üçüncü hissəsinə əsasən, yuxarıda göstərilən əməllər külli miqdarda törədildikdə 7 min manatdan 9 min manata qədər cərimə və ya 5 ilədək azadlqıdan məhrum etmə cəzası tətbiq olunacaq. Ağırlaşdırıcı hal olduqda, məsələn, eyni cinayət artıq bir dəfə məhkum edilmiş şəxs tərəfindən törədildikdə həmin şəxs 3 ildən 7 ilədək azadlıqdan məhrum ediləcək.

Eyni məzmunda əlavə və dəyişikliklər İnzibati Xətalar Məcəlləsinə də ediləcək. Məcəlləyə əlavə edilən 228-2-ci maddədə bildirilir ki, elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan genetik modifikasiya olunmuş bitkiləri, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarını və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarının bilə-bilə idxal edilməsinə və ya satılmasına az miqdarda yol verilməsinə görə inzibati xətanın bilavasitə obyekti olmuş bitkilər, bitki materialları və yeyinti məhsulları müsadirə edilməklə onların dəyərinin 80 faizindən 100 faizinədək miqdarda cərimə edilir. Qeyd edək ki, «az miqdar» dedikdə min manatadək olan dəyər başa düşülür.

**RƏŞAD**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2015-ci ilin yanvar-mart aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti və vətəndaş müraciətlərinin araşdırılması zamanı ayrı-ayrı müəssisələrdə **3327** hüquq pozuntusunu aşkar edilib.
- 2015-ci ilin 1-ci rübü ərzində avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə **198,855** sığorta müqaviləsi bağlanılıb. Bu müqavilələr üzrə daxil olan sığorta haqlarının məbləği **15,4 milyon manat** təşkil edib. Keçən ilin 1-ci rübü ilə müqayisədə sığorta müqavilələrinin sayında **24,2%**, sığorta haqlarının məbləğində isə **29,6%** artım müşahidə olunub.
- Cari ilin mart ayında **2 milyon 37 min 735 ton** Azərbaycan nefti Ceyhan limanından dünya bazarlarına çıxarılıb. Bu həcmin 1 milyon 226 min 279 tonunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun nefti təşkil edib.

# Vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsi yüksəlir

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, vergilərlə bağlı elektron xidmətlərdən əhalinin istifadəsinin asanlaşdırılması və artırılması məqsədilə bölgələrdə, xüsusən vergi orqanı olmayan şəhər və rayonlarda xidmət mərkəzləri yaradılmışdır. Vergilər Nazirliyi tərəfindən həyata keçirilən tədbirlər nəticəsində indiyədək 53 şəhər və rayonda Vergi ödəyicilərinə xidmət mərkəzi istifadəyə verilmişdir. Ucar və Zərdab rayonlarında isə yeni xidmət mərkəzləri tikilmiş və yaxın vaxtlarda istifadəyə verilməsi gözlənilir. Bu mərkəzlər vasitəsilə Vergilər Nazirliyinin ayrı-ayrı strukturları tərəfindən göstərilən xidmətlər vahid məkanda həyata keçirilir. Artıq vergi ödəyicilərinə bu mərkəzlər vasitəsilə aşağıdakı xidmətlər göstərilir:

- «Asan imza» ilə bağlı sertifikat xidmətlərinin göstərilməsi;
- Vergi qanunvericiliyinə dair sualların cavablandırılması;
- Elektron xidmətlərdən istifadəyə dair müraciət edən şəxslərə kömək göstərilməsi;
- Qeydiyyatla bağlı xidmətlərin göstərilməsi;
- Uyğunsuzluqların araşdırılması;
- Yazılı (kağız daşıyıcısında) müraciətlərin qəbulu və emalı;
- Bəyannamələrin, hesabatların, arayışların və digər sənədlərin qəbulu;
- Vergilərə dair ərizə və hesabat formalarının, buklet və başqa nəşrlərin verilməsi;
- Müraciət edən şəxslərə hazır sənədlərin təhvil verilməsi;
- Müraciət edən şəxslərə hazır sənədlərlə bağlı telefon əlaqəsinin yaradılması;
- Vergidən yayınma halları barədə məlumatların qəbulu;
- Vergi orqanının və onun vəzifəli şəxslərinin hərəkət və ya hərəkətsizliyi barədə şikayətlərin qəbulu;
- Özünə xidmət.

Vergilər Nazirliyi ilə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında imzalanmış tərəfdaşlıq sazişinə əsasən, mərkəzlərdə konfederasiyanın nümayəndəsi və aidiyyəti ərazi vergi orqanının əməkdaşı tərəfindən xidmət həyata keçirilir. Sahibkarların məlumatlandırılması, onlara vergi öhdəliklərinin yerinə yetirilməsində zəruri metodiki köməyin, habelə elektron xidmətlərin göstərilməsi mərkəzlər tərəfindən ödənişsiz həyata keçirilir. Ödəyicilər vergi orqanına getmədən burada qeydiyyata alına, ərizə və bəyannamələrini göndərə bilirlər. Büdcəyə olan vergi borcu, onun yaranma səbəbləri və digər məsələlər barədə ətraflı məlumatların da bu mərkəzlərdən əldə edilməsi mümkündür.

Xidmət mərkəzlərinin fəaliyyətinin günün tələbləri səviyyəsində qurulmasında nazirliyin «Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı Konsepsiyasının (2011-2015-ci illər)» xüsusi rolu olmuşdur. Kon-




sepsiyada vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı və bununla bağlı həyata keçiriləcək layihələrin hədəfləri müəyyən edilmişdir və bu işlər mərhələli şəkildə aparılır. Vergi ödəyicilərinə göstərilən xidmətlərin spektrinin genişləndirilməsi nəzərdə tutulmuş və buna uyğun olaraq «Vergi ödəyicilərinə xidmət mərkəzində vergi ödəyicilərinin qəbulu və xidmətin təşkili Qaydaları» təsdiq edilmişdir. Beləliklə, artıq vergi ödəyicilərinin hər hansı vergi məsələsi ilə əlaqədar ərazi vergi idarələrinə getmələrinə ehtiyac qalmır. Çünki ödəyicilər həmin xidmətləri fəaliyyət göstərdikləri və ya yaşadıqları yerə yaxın xidmət mərkəzinə müraciət etməklə əldə edə bilirlər.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsindən aldığımız məlumata görə, 2014-cü il ərzində xidmət strukturlarına müraciət etmiş 301192 şəxsə 395645 sayda müxtəlif xidmətlər göstərilmişdir. Xüsusilə bəyannamə və hesabatların vergi orqanlarına təqdim edildiyi dövrlərdə, məsələn, ayrı-ayrı tədiyyələr üzrə ən çox bəyannamə və hesabatların təqdim edildiyi yanvar-mart aylarında və rübdə bir dəfə sadələşdirilmiş vergi bəyannaməsinin təqdim olunduğu dövrdə xidmət mərkəzlərinə müraciət edən vergi ödəyicilərinin sayı daha çox olmuşdur.

Vergi ödəyicilərinin hansı məsələlərlə bağlı müraciət etməsi, onları narahat edən məqamlar Vergilər Nazirliyində mütəmadi təhlil edilir və əldə olunan nəticələrlə bağlı müvafiq tədbirlər həyata keçirilir. Təhlillər göstərir ki, indiyədək xidmət mərkəzlərinə ən çox vergi qanunvericiliyinin və inzibatçılığının tətbiqi üzrə suallara aydınlıq gətirilməsi, məlumat və izahatların alınması, bəyannamə və hesabatların elektron formada göndərilməsi, vergi borclarının və onun yaranması səbəblərinin öyrənilməsi ilə əlaqədar müraciətlər edilmişdir. Göstərilmiş xidmətlərin nisbəti belə olmuşdur:

- Vergilər Nazirliyi ilə elektron sənəd mübadiləsinin aparılması üzrə xidmətlər (ərizələrin qəbulu, istifadəçi kodu, şifrə və parolun verilməsi) - 13,4%;
- Fiziki şəxsin vergi uçotuna alınması - 12,4%;
- Sadələşdirilmiş vergi bəyannaməsinin vergi orqanına onlayn təqdim edilməsi - 11,5%;
- «Asan imza» sim-kartı üzrə sertifikat xidmətlərinin göstərilməsi - 5,2%;
- Daxil olmuş sənədlərin və şəxsi hesab vərəqənin izahı - 3,6%;
- Elektron bəyannamənin qəbulu - 3,5%;
- Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi - 2,9%;
- Fiziki şəxsin fəaliyyətinin onlayn dayandırılması - 2,8%;
- Ərizə, arayış və məktubların vergi orqanına onlayn göndərilməsi - 1,7%;
- Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin olduğu yer üzrə uçota alınması - 1,3%.

Gələcəkdə vergilərin vaxtında və tam məbləğdə büdcəyə ödənilməsi imkanlarının genişləndirilməsi məqsədilə xidmət mərkəzlərində ödəniş terminallarının quraşdırılması, xidmət səviyyəsini müəyyən etmək və artırmaq üçün avtomatik növbə və qiymətləndirmə avadanlıqlarının quraşdırılması, xidmət mərkəzlərinin interyerinin mövcud qaydalara uyğun yenidən dizaynı və texniki təchizatının yaxşılaşdırılması nəzərdə tutulur.

**R.SADIQOV**

# Mobil maliyyə xidmətləri aktuallaşır

*Son statistika göstərir ki, hazırda dünya iqtisadiyyatının aparıcı istehsalçıları işlərini mobil tətbiqlər üzərində qurublar. Bunun əsas səbəbi müəssisə rəhbərinin qısa zaman ərzində istənilən yerdən öz biznes maraqlarını mobil vasitəsilə həyata keçirə bilməsidir. Bu həm zaman, həm də maddi baxımdan çox əlverişlidir.*

Ölkəmizdə də həm dövlət, həm də biznes sektorunda mobil tətbiqlərə maraq getdikcə artır. Ayrı-ayrı dövlət qurumlarında, «Elektron hökumət» portalında bu sahə üzrə konkret addımlar atılır.

Bununla belə, hələ Azərbaycanda mobil tətbiqlərin hazırlanması ilə məşğul olan sirkətlərin, fiziki şəxslərin və startapçıların sayı o qədər də çox deyil. Ölkədə hazırlanan mobil tətbiqlərin əksəriyyəti korporativ xarakterlidir. İstənilən şirkət inkişaf etdikcə fəaliyyət sahəsi, beynəlxalq əlaqələri də genişlənir. Müasir dövrün texnoloji tələblərinə cavab vermək üçün mobil tətbiqin hazırlanma zərurəti meydana çıxır.

«Multimedia» İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz mobil maliyyə xidmətlərinin elektron ödəmənin formalarından biri olduğunu bildirir. Onun sözlərinə görə, burada həm bank, həm də mobil operator iştirak etsə də, mobil operatorların üzərinə daha böyük iş düşəcək: «Mobil qurğudan artıq həm də ödəniş vasitəsi kimi istifadə olunacaq. Amma buradakı məlumatların, vəsaitlərin əldə olunması ilə bağlı kənar qüvvələrin də maraqları artacaq. Düşünürəm ki, bank sektoru və mobil operatorlar bu məlumatların oğurlanmasının qarşısını almaq üçün müvafiq texnologiya və müasir təhlükəsizlik vasitələri tətbiq edə biləcəklər».

Azərbaycan Mərkəzi Bankı (AMB) ölkədə mobil maliyyə xidmətlərinin (Mobile Finances Services - MFS) göstərilməsi üzrə qanun layihəsi hazırlayır. AMB-nin məlumatına görə, MFS xidməti abonentlərə mobil qurğular vasitəsilə bank hesablarına çıxış əldə etməyə, pul köçürmələrini təkmilləşdirməyə və müxtəlif xidmətləri (internet, kommunal xidmətlər, TV xidmətləri, mobil və stasionar telefob rabitəsi) ödəməyə imkan verəcək.




*Mobil operatorlar artıq abonentlərinə həmin xidmətləri göstərmək üçün platformanın hazırlanmasına başlayıblar*

Məlumata görə, qanun layihəsinin hazırlanmasına müvafiq tənzimləyici orqanlar və Azərbaycanın mobil rabitə operatorları cəlb ediliblər. Mobil operatorlar artıq abonentlərinə həmin xidmətləri göstərmək üçün platformanın hazırlanmasına başlayıblar. Xidmətdən necə istifadə ediləcəyi ilə bağlı təfərrüatlar isə hüquqi təmzimlənmə məsələləri həll edildikdən sonra məlum olacaq.

**Fəxriyyə İKRAMQIZI**

# Qiymətli kağızlar nağdsız ödəniş vasitəsi kimi...

Hökumət nağdsız ödənişlərlə bağlı həyata keçirilən tədbirlər çərçivəsində qiymətli kağızlardan nağdsız maliyyə aləti kimi istifadə olunmasını nəzərdən keçirir. Qarşıdakı illərdə qiymətli kağızlar üzrə hesablaşma sisteminin ödəniş sistemləri infrastrukturuna inteqrasiyasının təmin olunması məqsədilə bir sıra stimullaşdırıcı addımların atılması planlaşdırılır. Qiymətli kağızlar bazarının inkişafına dair ortamüddətli inkişaf strategiyasında iqtisadi layihələrin maliyyələşdirilməsinə qiymətli kağızların cəlb olunması, iqtisadi subyektlərin və əhalinin yığımlarının fond bazarında səmərəli yerləşdirilməsi üçün müvafiq şəraitin yaradılması nəzərdə tutulub.

İqtisadçı ekspert Orxan Məmmədovun sözlərinə görə, qiymətli kağızlar üzrə hesablaşmaların ödəniş sistemləri infrastrukturuna inteqrasiyası bazar iştirakçıları arasında qarşılıqlı öhdəliklər üzrə hesablaşmaların vaxtında və təhlükəsiz həyata keçirilməsinə, risklərin aradan qaldırılmasına imkan verir. Aparılan təhlillərə görə, elektron ödənişlərin həcminin ilbəil artmasına baxmayaraq, ödəniş sistemləri sahəsində bir sıra zəruri tədbirlərin həyata keçirilməsinə, mövcud infrastrukturdan və potensialdan, digər maliyyə vasitələrindən daha geniş şəkildə istifadə olunmasına ehtiyac var.

O.Məmmədov bildirib ki, təsərrüfatlararası əməliyyatların nağdsız formada tənzimlənməsinin ən mütərəqqi və sərfəli yolu qeyri-pul alətləri olan qiymətli kağızlardır. Qiymətli kağızların daha aktiv və müştərilər üçün sərfəli olan növləri - səhm, ipoteka istiqrazları, veksellər - tikinti, ticarət, xidmət sektorlarında maliyyə əməliyyatlarını tənzimləmək üçün ən yaxşı vasitə hesab edilir. Qiymətli kağızların maliyyə və ödəniş bazarlarına transferi nağd pullara tələbatın azalmasında mühüm rol oynayır və əməliyyatların nağdsız yolla həyata keçirilməsi maliyyə risklərini minimuma endirir. Bu kağızların buraxışının artırılması nağdsız vəsaitlərin dövriyyəsinin artmasında, nağd pulların çapı, daşınması, saxlanması və təsərrüfat əməliyyatlarının xərclərinin azalmasında əhəmiyyətli rol oynayır. Girov qoymaqla bağlı prosedurların sadələşdirilməsi, qiymətli kağızların alqı-satqısı üzrə əməliyyatların avtomatlaşdırılmış prinsip əsasında həyata keçirilməsi tərəflər arasında hesablaşmaların səmərəliliyini və təhlükəsizliyini yüksəltməklə likvidliyin daha çevik və səmərəli idarə edilməsinə səbəb olacaq.

*Təsərrüfatlararası əməliyyatların nağdsız formada aparılmasının sərfəli yolu qeyri-pul alətləri olan qiymətli kağızlardır*

Qiymətli kağızların emissiyasının artırılmasında və nağdsız hesablaşmalar bazarında iştirakının təmin edilməsində maraqlı tərəflərdən biri də Mərkəzi Bankdır. MB-dən verilən məlumata görə, «Ödəniş xidmətləri haqqında» qanun layihəsində ödəniş sistemləri sahəsində əlavə tədbirlərin - qeyri-pul alətlərinin, o cümlədən qiymətli kağızların nağdsız dövriyyəyə cəlb olunma imkanları nəzərdə tutulub. Yeni qanunda elektron ödəniş xidmətlərinin institusional bazasının daha da gücləndirilməsi, təqdim olunan xidmətlərin çeşidinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi kimi amillərə xüsusi yer verilib. Bundan başqa, qiymətli kağızlar üzrə hesablaşma sisteminin ödəniş sistemləri infrastrukturuna inteqrasiyasının təmin olunması, hesablaşmaların həyata keçirilməsində müasir texnologiyalara əsaslanan ödəniş mexanizmlərindən istifadə edilməsi ödəniş alətlərinin istifadəsi üzrə stimullaşdırıcı proqramların reallaşmasında nəzərdə tutulan əsas tədbirlərdəndir. Bu məqsədlə elektron pul təşkilatları ilə Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi arasında əməkdaşlığın qurulması təklif edilir. Avropa ölkələrinin qiymətli kağızlar üzrə tanınmış şirkətlərinin, maliyyə institutlarının, kommersiya banklarının ödəniş sistemləri sahəsində təcrübəsinin öyrənilməsi və tətbiq olunması də əsas hədəflərdəndir.

**E.CƏFƏRLİ**

# Sənaye parkının infrastrukturunun tikintisi uğurla davam edir

*Sumqayıt Kimya Sənaye Parkı (SKSP) ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişaf etdirmək, qeyri-neft sektorunun davamlı inkişafını dəstəkləmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi ilə yaradılıb. Sənaye Parkının fəaliyyəti üçün ayrılmış ərazidə köhnə qurğular sökülüb, torpaq istifadəyə yararlı vəziyyətə gətirilib.*

Xarici və daxili infrastrukturun - qaz, su, kanalizasiya, rabitə, nəqliyyat xətlərinin, elektrik və istilik enerjisi, yanğından mühafizə, istehsal təyinatlı obyektlərin yaradılması istiqamətində zəruri tədbirlər görülüb. Ümumilikdə bütün sahələr üzrə inşaat işləri qrafikə uyğun aparılır. Sənaye Parkının infrastrukturunun birinci fazasının tikintisi bu ilin sonunadək başa çatdırılacaq.

Baş plana əsasən, Sumqayıt Kimya Sənaye Parkının ərazisi sənaye zonası və sosial zonadan ibarətdir. Hazırda parkda 4 şirkət rezident statusu alıb. Bunlar «Azertexnolayn» MMC, «SOCAR Polymer», «AzerFloat» QSC və «Azerbaijan Fibro Cement» MMC-dir. Parkının rezidentləri 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, həmçinin idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara görə ƏDV-dən azad olunurlar.

Sumqayıt Kimya Sənaye Parkında texniki infrastruktur şəbəkəsi rezidentlərə ən müasir üslubda inşa olunaraq «birbaşa qoşulma» («plug&play») sistemi əsasında təqdim olunacaq. Yəni, sənaye parkının hər bir rezidentinin infrastruktur şəbəkəsinə dərhal qoşulmaq imkanı olacaq. Sənaye Parkının infrastrukturunun tikintisi dövlət büdcəsi hesabına maliyyələşdirilir. Bu isə öz növbəsində investisiya layihələrini daha da səmərəli edəcək.

Sumqayıt Kimya Sənaye Parkında rezident statusu əldə etmək istəyən investorlar üçün qeydiyyat proseduru sadələşdirilib. Belə ki, investorların rahat qeydiyyatdan keçməsi, qeydiyyat ərizələrinin doldurulması, statistik hesabatların təqdim edilməsi, Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə inteqrasiyanın təmin edilməsi üçün «vahid pəncərə» şəklində elektron portalın yaradılması üzərində işlər davam etdirilir. SKSP-nin rezident olmaq istəyən fiziki və hüquqi şəxslər elektron imza əldə etməklə burada qeydiyyatdan keçə biləcəklər. Bu portal eyni zamanda rezidentlər üçün elektron ofis (E-ofis) kimi xidmət göstərəcək. Artıq portal üzərində ilkin sınaqlar həyata keçirilib.

# Təhlükəsizlik tədbirləri müsbət nəticəsini verir

*Əmək qanunvericiliyi iş yerlərində əməyin mühafizəsi və texniki təhlükəsizliyin təmin olunması məqsədilə işəgötürənlər qarşısında konkret vəzifələr müəyyən edir.*

İş yerlərində təhlükəsiz və sağlam əmək şəraitinin yaradılması, peşə risklərinin düzgün qiymətləndirilməsi, eləcə də iş yerlərinin attestasiyasının vaxtında və keyfiyyətlə aparılması əmək qanunvericiliyinin əsas tələblərindəndir. Bu tələblərə işəgötürənlər tərəfindən əməl edilməməsi, əməyin mühafizəsi normalarının pozulması nəticə etibarilə istehsalatla əlaqəli bədbəxt hadisələrə, işçilərin xəsarət almalarına və həlak olmalarına, peşə xəstəliklərinə düçar olmalarına gətirib çıxarır.




***Həyata keçirilən tədbirlər müsbət nəticə verir***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti tədbirləri həyata keçirilir. Bu cür tədbirlər keçirilən müəssisələrin sayı ötən il 11527 olub. Dövlət nəzarəti və vətəndaş müraciətlərinin araşdırılması zamanı, əksəriyyəti özəl sektora aid müəssisələrdə, ticarət və ictimai iaşə, topdansatış, tikinti sektorlarında olmaqla, ümumilikdə 20417 halda əmək qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edilib. Hüquq pozuntularına görə 3113 vəzifəli və hüquqi şəxs barədə inzibati qərar qəbul edilib, onlara 4 mln. 292 min 600 manat məbləğində inzibati cərimə tətbiq olunub. Həmin cərimələrin 44,6 %-i dövlət büdcəsinə ödənilib ki, bu da 2013-cü illə müqayisədə 24 dəfə çoxdur.

Ötən ildən başlayaraq «Təhlükəsiz iş həftəsi», «Təhlükəsiz iş ongünlüyü» kimi aksiyaların keçirilməsi öz müsbət nəticələrini verir. Təkcə bu ilin əvvəlində keçirilən «Təhlükəsiz iş ongünlüyü» çərçivəsində əməyin mühafizəsi vəziyyətinin yerindəcə araşdırılması üçün ümumilikdə 21 müəssisədə dövlət nəzarəti həyata keçirilib, nəticədə ayrı-ayrı müəssisələrə əməyin mühafizəsi sahəsində yol verdikləri hüquq pozuntularına görə ümumilikdə 39800 manat məbləğində cərimələr tətbiq olunub.

Bu cür aksiyalar zamanı həm maarifləndirmə, həm də inzibati yönümdə aparılan işlərin müsbət nəticəsi olaraq, istehsalatla əlaqəli bədbəxt hadisələrin, ölüm və xəsarətalma hallarının sayı kəskin şəkildə azalıb. Məsələn, cari ilin yanvar ayında istehsalatla əlaqəli bədbəxt hadisələrin sayı 2014-cü ilin yanvar ayı ilə müqayisədə 28,5 faiz, fevral ayında isə müvafiq dövrlə müqayisədə 2,6 dəfə azalıb. Ölüm hallarının sayı bu ilin yanvar ayında 50 faiz azalıb, fevral ayında isə ölüm halı ümumiyyətlə qeydə alınmayıb. Xəsarət alanların sayında da kəskin azalma özünü göstərib.

***Əməyin mühafizəsi günü yaxınlaşır***

Aprel ayının 28-i Ümumdünya Əməyin Mühafizəsi günüdür. Bununla əlaqədar ölkədə «Təhlükəsiz iş aylığı» elan olunub. Tədbirin məqsədi işçilər üçün sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına nail olmaq, istehsalatda bədbəxt hadisələrin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görmək və əməyin mühafizəsi sahəsində mövcud nöqsanların aradan qaldırılmasını təmin etməkdir. Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Fuad Əlizadə bildirib ki, artıq görüləcək işlərin tədbirlər planı təsdiq olunub. Plana əsasən, Bakıda və respublikanın regionlarında əməyin mühafizəsi, işçilərin həyat və sağlamlığının qorunması mövzusunda silsilə tədbirlər həyata keçiriləcək. Bu tədbirlər vasitəsilə işəgötürənlərin, işçilərin, ümumən cəmiyyətin diqqəti əməyin təhlükəsizliyi problemlərinin ciddiliyinə yönəldiləcək. İşəgötürənlər və işçilər arasında əməyin mühafizəsi ilə bağlı təbliğat-maarifləndirmə işlərinin aparılması üçün seminar-müşavirələr, «dəyirmi masa»lar keçiriləcək: «Bunlarla yanaşı, istehsalat qəzası riski yüksək olan müəssisələrdə, xüsusən də daş karxanalarında əmək qanunvericiliyinə, texniki təhlükəsizlik qaydalarına əməl olunması vəziyyətinin öyrənilməsi üçün sosial tərəfdaşların, aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə dövlət nəzarəti tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur».

**AYTƏN**

# Sosial ipoteka üçün əlavə mənbələr cəlb olunacaq

Sosial ipotekanın təkmilləşdirilməsi və əhatəsinin genişləndirilməsi məqsədilə yeni layihə hazırlanıb. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təkliflərinin xüsusi yer aldığı sənəddə ailələrin mənzilə ehtiyacının ödənilməsi üçün ipotekaya ayrılan ümumi vəsaitin həcminin artırılması, ipotekanın geniş tətbiqi nəzərdə tutulur. Komitənin sədr müavini Sədaqət Qəhrəmanova bildirib ki, təkliflər hazırlanarkən beynəlxalq maliyyə-bank təşkilatlarının təcrübəsi və bu sahə üzrə tanınmış xarici ekspertlərin rəyləri nəzərə alınıb.

Sənəd Mərkəzi Bank (MB) və İpoteka Fondu tərəfindən də müsbət qiymətləndirilib. Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov bildirib ki, ipoteka proqramı ilə bağlı yeni təkliflər hökumətə təqdim olunub. Təkliflərə əsasən, ipoteka krediti məbləğinin artırılması, sosial və kommersiya ipotekası üzrə maliyyələşdirmənin həcminin dəfələrlə artırılması, ucuz mənzillərin maliyyələşdirilməsi, «sosial evlər»in tikintisi, regionlarda ipoteka kreditləşməsi imkanlarının genişləndirilməsi və s. nəzərdə tutulur. Sənəddə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin irəli sürdüyü müddəalar da nəzərə alınıb. Hökumət regionlarda yaşayan insanların orta aylıq əməkhaqqının paytaxtla müqayisədə aşağı olmasını da nəzərə alacaq və regionlarda faizlərin aşağı salınması istiqamətində addımlar atacaq. İpoteka kreditlərinin verilməsi zamanı ilkin ödənişin gənc ailələr üçün ləğv edilməsi də təkliflər siyahısındadır. Mərkəzi Bank bunun üçün iki praktikadan istifadə etmək niyyətindədir. Bunlardan birincisi - əmanət tipli bankların formalaşdırılması və bununla bağlı ipoteka fondunun yaradılması, ikincisi - İpoteka Fondu yanında ipoteka zəmanət fondunun formalaşdırılmasıdır.

MB sosial ipotekanın ABŞ və Almaniya modelini məqbul sayır və həmin ölkələrin təcrübəsinə əsasən əldə edilmiş məlumatlar üzrə müxtəlif təhlillər aparılır. Bu modelə əsasən, ipoteka sisteminin davamlılığı üçün təkcə sosial yardımla kifayətlənmək məqsədəuyğun hesab edilmir. İpotekanın mənbələri dövlətin maliyyə resursları ilə yanaşı, əlavə mənbələr hesabına formalaşır: maliyyələşmə mənbələri kimi qiymətli kağızlardan, kredit və qrantlardan və Maliyyə Nazirliyinin səhm və istiqrazlarından da istifadə olunur. Əhalinin öz yığımları hesabına ipoteka kreditləri əldə etməsi, bank olmayan kredit təşkilatlarının bu prosesə cəlb olunması məsələsi də nəzərdən keçirilir.

MB hesab edir ki, dövlətin ayırdığı maliyyə vəsaitləri hesabına ipoteka bazarının iştirakçılarının tələblərini tamamilə ödəmək mümkün deyil. İpoteka Fondu büdcədən yönəldilən vəsaitlərlə kreditləşmənin bir hissəsini təmin etmək imkanına malik ola bilər, ipoteka bazarının daha aktiv fəaliyyət göstərməsi üçün əlavə mənbələr hesabına maliyyələşdirmə həyata keçirilməlidir. Adi ipoteka kreditləşməsinin genişləndirilməsi üçün əlavə bazar mənbələrinin cəlbi, yeni ipoteka məhsullarının yaradılması zəruridir.

Beynəlxalq ipoteka bazarlarında mənzil kreditlərinin verilməsində birbaşa maliyyə vəsaitləri ilə yanaşı, ipoteka qiymətli kağızları da başlıca rol oynayır. Hazırda bir çox dövlətlərdə ipoteka sisteminin əsasını qiymətli kağızlar təşkil edir. İpoteka fondları bazar prinsipləri üzrə fəaliyyət göstərir və vətəndaşların mənzilə olan ehtiyacları istiqrazlar vasitəsilə təmin edilir.

Azərbaycanda sosial ipoteka bazarını inkişaf etdirmək üçün Beynəlxalq Maliyyə Korporasiyasının (BMK) və digər təşkilatların qabaqcıl modelləri də nəzərdən keçiriləcək. BMK ilə əldə olunmuş razılığa əsasən, qurum maliyyə bazarlarına çıxış imkanlarının genişləndirilməsi, girovla bağlı prosedurların sadələşdirilməsi, investisiya cazibədarlığının artırılması və gələcək hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində İpoteka Fonduna məsləhət xidmətləri göstərəcək.

Müxtəlif iqtisadi institutlarla aparılan müzakirələrə əsasən, ipoteka bazarının inkişafı və daha çox ailənin bu kreditləri ala bilməsi üçün tikinti zəmanət banklarının yaradılması da gündəlikdədir. Bu model də dünyada geniş yayılıb və əhalinin ilkin ödəniş problemlərinin həll etməsinə imkan verir. MB 2015-2017-ci illərdə ipoteka kreditləri üzrə zəmanət mexanizminin formalaşdırılması istiqamətində addımların atıla biləcəyini istisna etmir.

Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Rüfət Aslanlı hesab edir ki, ipoteka istiqrazlarının dövriyyəsinin artırılması daşınmaz əmlak bazarında tələbin yüksəlməsinə səbəb olacaq. Yeni qiymətli kağızlar mənzil sahibi (tikinti şirkəti) ilə mənzil alan arasında ikitərəfli qaydada razılaşdırılmış təminat vasitəsi sayılır. Komitə ipoteka istiqrazlarının dövriyyəyə buraxılmasından sonra tikinti bazarının canlanacağını bildirir. İpoteka istiqrazlarının potensial alıcıları iri şirkətlər, sığorta və maliyyə qurumları, qeyri-dövlət pensiya fondları, səhmdarlar və digər aktiv bazar iştirakçıları hesab olunur.

*İpoteka kreditlərinin verilməsi zamanı ilkin ödənişin gənc ailələr üçün ləğv edilməsi təkliflər siyahısındadır*



**ELBRUS**

# Ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılmış vergi ödəyiciləri

***Vergilər Nazirliyi dövlət büdcəsinə olan vergi borclarını ödəməkdən yayınmağa çalışan vergi ödəyicilərinə qarşı tədbirlərini davam etdirir. Məlum olduğu kimi, belə tədbirlərdən biri də «İcra haqqında» Azərbaycan Respublikası Qanununun 84-1.1-ci maddəsinə və Vergi Məcəlləsinin 23.1.16-cı maddəsinə əsasən vergi ödəyicisi vergi borcunu ödəmədikdə onun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasıdır.***

***2015-ci il aprelin 1-i tarixinə aşağıdakı borclu vergi ödəyicilərinin ölkədən getmək hüququ müvafiq məhkəmə qərarlarına əsasən müvəqqəti olaraq məhdudlaşdırılmışdır. Bu isə o deməkdir ki, vergi borcunu tam ödəməyincə, bu şəxslərin ölkədən kənara çıxmasına icazə verilməyəcək.***

| Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon |
|---|---|
| ƏSƏDOV MÜŞVİQ TOFİQ OĞLU | BAKI ŞƏHƏRİ NİZAMİ RAYONU |
| ƏHMƏDOVA ÜLVİYYƏ MİRZƏ QIZI | BAKI ŞƏHƏRİ SƏBAİL RAYONU |
| QURBANOV VİDADİ CAHANGİR OĞLU | BAKI ŞƏHƏRİ SƏBAİL RAYONU |
| MOHSENİ HOSSEİN . | BAKI ŞƏHƏRİ SƏBAİL RAYONU |
| HƏMİDOV EMİN TAHİR OĞLU | BAKI ŞƏHƏRİ SURAXANI RAYONU |
| ŞABİYEV ELVİN RAMİZ OĞLU | BAKI ŞƏHƏRİ SURAXANI RAYONU |
| RƏHİMOV ZÜLFÜQAR MUSA OĞLU | BAKI ŞƏHƏRİ SURAXANI RAYONU |
| MƏMMƏDOV ƏLİ VASİL OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| GÖKÜŞ ÖZAY FAZLI | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| ÇAKIR MUSTAFA CENK ALTAN | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| HÜSEYNOV BƏŞİR İBRAHİM OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| ABDULLAYEV NAMİQ ƏHMƏDAĞA OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| QULİYEV XALİQ RAFİQ OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| NOVRUZOV FUAD AĞAKƏRİM OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| ŞİRƏLİYEV ZÖHRAB RƏSUL OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| MAHMUDOVA SAHİBƏ BƏXTİYAR QIZI | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| ŞƏRİFOV NOBATALI SAHİB OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| HƏSƏNOV SAHİB AFİQ OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| XALIQOV OQTAY CANMİRZƏ OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| GÜNEŞ FATİH MEHMET EMİN | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| SƏFƏRƏLİYEV RAUF AYDIN OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| İSMAYILOV RÖVŞƏN KAMAL OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| XƏLİLOV SEYHUN NƏBİ OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| GÜLMALIYEVA RƏSMİYƏ ƏLƏMDAR QIZI | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| MİRZƏLİYEV MAHİR AĞAMEHDİ OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| ALLAHVERDİYEV VASİF ALLAHYAR OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| HƏSƏNZADƏ İLQAR NAMİK OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| ƏLİYEV ZAUR ƏLƏDDİN OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| BAĞIROVA BÖYÜKXANIM NURƏLİ QIZI | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| EYYUBOV AĞASALAH AĞABALA OĞLU | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| ƏLİYEV ZAHİD QAFIR OĞLU | AĞCABƏDİ |
| ALLAHMANOV NÜSRƏT ŞAHVƏLƏD OĞLU | AĞSTAFA |
| YOLÇİYEVA OLQA VAQİF QIZI | AĞSTAFA |

| Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon |
|---|---|
| ƏHMƏDOV RAVİL ARİF OĞLU | BƏRDƏ |
| MUSTAFAYEV ZAUR MEHMAN OĞLU | BƏRDƏ |
| NƏBİYEV ƏRŞAD NƏSİR OĞLU | BƏRDƏ |
| ŞAHMURADOVA ƏZİZƏ YUSİF QIZI | BƏRDƏ |
| NURƏHMƏDOV ZALAN ZAMAN OĞLU | BƏRDƏ |
| MƏMMƏDOV SAHİB ÇİNGİZ OĞLU | BƏRDƏ |
| HƏSƏNOV RAMİN MÖHÜBBƏT OĞLU | BƏRDƏ |
| ƏZİZLİ ƏZİZ FƏQANİ OĞLU | BƏRDƏ |
| MƏMMƏDOV XAQANİ NƏSİR OĞLU | BƏRDƏ |
| İSGƏNDƏROVA YEGANƏ MƏHƏMMƏD QIZI | BƏRDƏ |
| AĞAYEV RAMİN QƏNBƏR OĞLU | BƏRDƏ |
| İSGƏNDƏROV VALEH VƏLİYƏDDİN OĞLU | BƏRDƏ |
| MƏSTANLI ELŞƏN VİLAYƏT OĞLU | BƏRDƏ |
| ZEYNALOV CAVİD NƏSİB OĞLU | BƏRDƏ |
| ADIGÖZƏLOV RÖVŞƏN VAQİF OĞLU | BƏRDƏ |
| XƏLİLOV MİSİR VƏZİR OĞLU | BƏRDƏ |
| ƏBDÜRƏHMANOV ANAR FƏRMAN OĞLU | BƏRDƏ |
| ALLAHVERDİYEV İLHAM ÇİNGİZ OĞLU | BƏRDƏ |
| BAĞIROV ALTAİR ELDAR OĞLU | BƏRDƏ |
| ALIYEV MƏNSUR MAHMUD OĞLU | BƏRDƏ |
| ƏLİYEV BABƏK CAHİD OĞLU | BƏRDƏ |
| SƏFƏROV ZAKİR XANKİŞİ OĞLU | BƏRDƏ |
| ALLAHVERDİYEV VÜSAL RÖVŞƏN OĞLU | BƏRDƏ |
| QAFAROV ELXAN RƏŞİD OĞLU | GƏNCƏ |
| MƏMMƏDOV RÖVŞƏN AVTANDİL OĞLU | GƏNCƏ |
| İSGƏNDƏROV TURAL İLQAR OĞLU | GƏNCƏ |
| RZAYEV ZAUR ŞƏMSƏDDİN OĞLU | GƏNCƏ |
| MEHDİYEV CEYHUN NAMİQ OĞLU | GƏNCƏ |
| ƏLİYEV CEYHUN YAFƏZ OĞLU | GƏNCƏ |
| MƏMMƏDOV ELŞAD ZÖHRAB OĞLU | GƏNCƏ |
| CƏFƏROV ƏLASLAN ALI OĞLU | GÖYGÖL |
| TEYMURZADƏ VÜSAL RAMƏDDİN OĞLU | GÖYGÖL |
| MUSTAFAYEV TARYEL SURXAY OĞLU | GÖYGÖL |

| Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon |
|---|---|
| BAYRAMOV ARİF OKTAY OĞLU | HACIQABUL |
| XUBYAROV TELMAN ƏHMƏDAĞA OĞLU | İMİŞLİ |
| ƏHƏDOV ARAZ AĞABALA OĞLU | MASALLI |
| ƏHMƏD QIZI LEYLA | MİNGƏÇEVİR |
| MƏHƏRRƏMOV BƏKİR AYDIN OĞLU | NAFTALAN |
| SÜLEYMANOV ŞAQİL ƏMİRASLAN OĞLU | QAZAX |
| ABBASOV ƏLİ FƏRMAN OĞLU | QUBADLI |
| NƏCƏFOV CEYHUN ZÜLFÜQAR OĞLU | QUBADLI |
| MAHMUDOV VÜSAL MƏMMƏDAĞA OĞLU | SAATLI |
| HƏSƏNOV İSMƏT ZƏBULLA OĞLU | SAATLI |
| SƏMƏDOVA GÜNEL ZAKİR QIZI | SALYAN |
| SƏMƏDOV RAMİL MEHMAN OĞLU | SALYAN |
| SADIQOV ADİL COMƏRD OĞLU | ŞAMAXI |
| İSMAYILOV TAHİR MƏHƏRRƏM OĞLU | ŞƏKİ |
| RƏCƏBOVA TELLİ YUSİF QIZI | ŞƏKİ |
| ABBASOV FƏRHAD CAVANŞİR OĞLU | ŞƏKİ |
| BALƏNMƏDOV SAHİB FƏRƏHİM OĞLU | ŞƏKİ |
| SALAMOVA İRADƏ ABDUL QASIM QIZI | ŞƏKİ |
| DƏMİROV İLKİN RAFİQ OĞLU | ŞƏMKİR |
| ƏLƏKBƏROV CEYHUN ARZUMAN OĞLU | ŞƏMKİR |
| QƏNBƏROV NİZAMİ HÜSEYN OĞLU | ŞİRVAN |
| HƏSƏNOV ƏBİL RAMİZ OĞLU | ŞİRVAN |
| HƏSƏNOV MURAD İBRAHİM OĞLU | TOVUZ |
| UMUDOV SEYMUR NİZAM OĞLU | UCAR |
| CƏLALOV CƏSARƏT SEYFİ OĞLU | UCAR |
| MƏCNUNOVA İRADƏ ƏDİL QIZI | YEVLAX |
| YUSİFOV ELÇİN RAQUB OĞLU | YEVLAX |
| CƏFƏROVA VƏSİLƏ İMAMQULU QIZI | YEVLAX |
| MAHMUDOV NEMAN ƏŞRƏF OĞLU | YEVLAX |
| MƏMMƏDOV VAHİD VAQİF OĞLU | YEVLAX |
| HÜSEYNOV ELSEVƏR MƏMMƏDƏLİ OĞLU | YEVLAX |
| MƏMMƏDOV NURLAN FÜZULİ OĞLU | YEVLAX |
| QULİYEV ELNUR CƏFƏR OĞLU | YEVLAX |
| BABAYEV ƏFSUN BABAXAN OĞLU | ZƏRDAB |

## vergi təqvimi

**APREL**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | 4 | **5** |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | **12** |
| 13 | 14 | **15** | 16 | 17 | 18 | **19** |
| **20** | 21 | 22 | 23 | 24 | 25 | **26** |
| 27 | 28 | 29 | 30 | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 aprel – «(1) və (2)».

20 aprel – «(1-1)», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli, gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında (hazırda 111№-li, 112№-li, 121№-li və 122№-li hesablarda) aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davam etdiririk. Göstərilən nümunələr şərti və öyrətmə xarakter daşıyır. Bu dəfə misal olaraq alınmış binanın bir hissəsinin icarəyə verilməsi ilə bağlı əməliyyatlara nəzər yetirəcəyik.

***Misal.*** Müəssisə 05 yanvar 2011-ci il tarixdə faydalı istismar müddəti 25 il və son qalıq dəyəri 0 (sıfır) manat müəyyənləşdirilməklə ƏDV ilə birlikdə 212400 (180000 + 18%) manat dəyərində hər mərtəbəsi eyni sahəyə (eyni texniki göstəricilərə) malik ikimərtəbəli bina almışdır. Binadan ofis (idarəetmə) məqsədilə istifadə olunacaq və sahibkar tərəfindən binaya azalan qalıq metodu ilə illik 5% amortizasiya dərəcəsi tətbiq olunması qərarı verilmişdir. Lakin 31.12.2013-cü il tarixdə sahibkar (rəhbərlik) tərəfindən həmin binanın 1-ci mərtəbəsinin icarəyə verilməsi qərarı verilmişdir. Bina üzrə təsdiq olunan uçot siyasətinin digər tələbləri dəyişməz qalmışdır. Bu əməliyyatlarla bağlı veriləcək ikili yazılışları təyin etmək tələb olunur.

Əvvəlcə 05.01.2011-ci il tarixdən 31.12.2013-cü il tarixədək olan dövr üzrə hesablanmalı (mühasibat uçotu məqsədləri üçün) amortizasiya dəyərini müəyyənləşdirək. 1-ci mərtəbənin icarəyə verilməsi qərarının verildiyi tarixə bina üzrə ümumi yığılmış amortizasiya dəyəri 25672 (9000 + 8550 + 8122) manat təşkil edəcəkdir. İkili yazılışlar isə aşağıdakı kimi olacaqdır:

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 05.01.2011 | 113, Tamamlanmamış kapital qoyuluşları | 2 mərtəbəli bina alınmışdır (ƏDV-siz məbləğ) | 180000 | |
| 05.01.2011 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | 2 mərtəbəli bina alınmışdır (ƏDV-siz məbləğ) | | 180000 |
| 05.01.2011 | 241, Əvəzləşdirilən ƏDV | Alınmış binanın dəyərinin üzərindəki ƏDV uçota alınır | 32400 | |
| 05.01.2011 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış binanın dəyərinin üzərindəki ƏDV uçota alınır | | 32400 |
| 05.01.2011 | 111, Torpaq, tikili və avadanlıqar – ilkin dəyər | Alınmış bina istismara verilib (binanın hər iki mərtəbəsindən ofis qismində daxili məqsədlər üçün istifadə olunması nəzərdə tutulub) | 180000 | |
| 05.01.2011 | 113, Tamamlanmamış kapital qoyuluşları | Alınmış bina istismara verilib (binanın hər iki mərtəbəsindən ofis qismində daxili məqsədlər üçün istifadə olunması nəzərdə tutulub) | | 180000 |
| 31.12.2013 | 202, İnzibati xərclər | 05.01.2011-ci ilin yanvar ayından 31.12.2013-cü il tarixədək olan dövr üzrə hesablanmış amortizasiya dəyəri uçota alınır (bina inzibati məqsədlidirsə). | 25672 | |
| 31.12.2013 | 112, Torpaq, tikili və avadanlıqar – amortizasiya dəyəri | 05.01.2011-ci ilin yanvar ayından 31.12.2013-cü il tarixədək olan dövr üzrə hesablanmış amortizasiya dəyəri uçota alınır (bina inzibati məqsədlidirsə). | | 25672 |
| 31.12.2013 | 121, Daşınmaz əmlaka investisiyalar – ilkin dəyər | Binanın 1-ci mərtəbəsinin icarəyə verilməsi qərarının verildiyi tarixə olan ilkin dəyərindən (180000 manatdan) binanın 1-ci mərtəbəsinə aid edilən hissə (90000 manat) investisiya məqsədli daşınmaz əmlakın ilkin dəyəri kimi uçota alınır | 90000 | |
| 31.12.2013 | 111, Torpaq, tikili və avadanlıqar – ilkin dəyər | Binanın 1-ci mərtəbəsinin icarəyə verilməsi qərarının verildiyi tarixə olan ilkin dəyərindən (180000 manatdan) binanın 1-ci mərtəbəsinə aid edilən hissə (90000 manat) investisiya məqsədli daşınmaz əmlakın ilkin dəyəri kimi uçota alınır | | 90000 |
| 31.12.2013 | 112, Torpaq, tikili və avadanlıqar – ilkin dəyər | Binanın 1-ci mərtəbəsinin icarəyə verilməsi qərarının verildiyi tarixə yığılmış amortizasiya dəyərindən (25672 manatdan) binanın 1-ci mərtəbəsinə aid edilən hissə (12836 manat) investisiya məqsədli daşınmaz əmlakın amortizasiya dəyəri kimi uçota alınır | 12836 | |
| 31.12.2013 | 122, Daşınmaz əmlaka investisiyalar - amortizasiya dəyəri | Binanın 1-ci mərtəbəsinin icarəyə verilməsi qərarının verildiyi tarixə yığılmış amortizasiya dəyərindən (25672 manatdan) binanın 1-ci mərtəbəsinə aid edilən hissə (12836 manat) investisiya məqsədli daşınmaz əmlakın amortizasiya dəyəri kimi uçota alınır | | 12836 |
| 31.12.2014 | 202, İnzibati xərclər | Binanın ofis kimi istismar olunan 2-ci mərtəbəsi üzrə 2014-cü il üçün hesablanan amortizasiya dəyəri uçota alınır (90000 - 12836) x 5% | 3858 | |
| 31.12.2014 | 112, Torpaq, tikili və avadanlıqar – ilkin dəyər | Binanın ofis kimi istismar olunan 2-ci mərtəbəsi üzrə 2014-cü il üçün hesablanan amortizasiya dəyəri uçota alınır (90000 - 12836) x 5% | | 3858 |
| 31.12.2014 | 701, Satışın (göstərilən xidmətlərin, görülən işlərin) maya dəyəri | Binanın icarəyə verilən 1-ci mərtəbəsi üzrə 2014-cü il üçün hesablanan amortizasiya dəyəri uçota alınır (90000 - 12836) x 5% | 3858 | |
| 31.12.2014 | 122, Daşınmaz əmlaka investisiyalar - amortizasiya dəyəri | Binanın icarəyə verilən 1-ci mərtəbəsi üzrə 2014-cü il üçün hesablanan amortizasiya dəyəri uçota alınır (90000 - 12836) x 5% | | 3858 |

beynəlxalq panoram

# Qazaxıstan hasilat sənayesi üçün vergiləri optimallaşdırır



Hökumətin cari ilin birinci rübünün sonunadək hasilat müəssisələri üçün vergiləri optimallaşdırması barədə energetika naziri Vladimir Şkolnik məlumat verib: «2015-ci ildə dünya bazarında neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar hasilat şirkətləri tərəfindən xərclərin azaldılması istiqamətinə müəyyən tədbirlər görülüb. Bununla belə, hökumət əsas hasilat müəssisələrinin maliyyə vəziyyətinin təhlilini aparır. Martın sonuna kimi hasilat səviyyəsini saxlamaq üçün vergitutmanın optimallaşdırılması və cari investisiya xərclərinin azaldılması üzrə əlavə tədbirlər həyata keçiriləcək. V.Şkolnikin sözlərinə görə, Qazaxıstan neftinin ixrac həcmi 62 milyon ton təşkil edib və bunun 35 milyon tonu Xəzər boru kəməri konsorsiumu sistemi üzrə ixrac edilib.

Hazırda neft ixracına gömrük rüsumlarının dərəcəsi hər ton üçün 80 dollar, neft hasilatının maya dəyəri isə respublika üzrə orta hesabla bir barelə görə 50 dollar təşkil edir. Nazir xatırladıb ki, Xəzər boru kəməri konsorsiumu ixrac potensialının 67 milyon tona qədər genişləndirilməsi üzrə işləri davam etdirir. Bu işlərin 2016-cı ildə bitəcəyi gözlənilir. «2014-cü ildə 15 milyon ton neft emal edilib ki, bu da 2013-cü ildəkindən 4% çoxdur».

# Türkiyə Mərkəzi Bankı faiz dərəcələrinin aşağı düşdüyünü bəyan edib



*Mərkəzi Bankın monetar siyasət üzrə komitəsi əsas faiz dərəcəsinin 7,75%-dən 7,5%-dək endirilməsi barədə qərarını elan edib. Bundan başqa, birgünlük bank kreditləşməsinin baza dərəcəsi 11,25%-dən 10,75%-dək endirilib.*

2014-cü il yanvarın sonunda Mərkəzi Bank türk lirəsinin dünyanın başqa valyutalarına nisbət məzənnəsinin düşməsinin qarşısını almaq məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində əsas faiz dərəcəsini 4,5%-dən 10%-dək yüksəltmişdi. Sonradan Türkiyə Prezidenti R.T.Ərdoğan monetar siyasətin mülayimləşdirilməsi templərinin sürətləndirilməsinin vacibliyini dəfələrlə qeyd etmişdi. Faiz dərəcələri 2014-cü ilin may və iyununda, habelə 2015-ci ilin yanvarında aşağı salınmışdı.

# Rusiyada internet vergisi tətbiq edilə bilər

*Bu yeniliyin 2015-ci ilin payızında qüvvəyə minməsi nəzərdə tutulur.*

Musiqi əsərlərinə, ifaların yazılarına, fonoqramlara, ədəbi və audiovizual əsərlərə şamil olunacaq «qlobal lisenziya» tətbiqi təklif olunur. Güman edilir ki, şəbəkə istifadəçiləri müvafiq sənədi olan operatorla müqavilə bağlayacaq və hər il ona 300 rubl ödəyəcək. Pulların bir hissəsi hüquq sahibinə çatacaq. Gözlənilir ki, əqli mülkiyyət reyestrinin aparılması ilə müəlliflik hüquqlarının kollektiv idarə edilməsi üzrə xüsusi təşkilat məşğul olacaq və o, qanunla qorunan əsərlərin siyahısını tərtib edəcək, zəruri hallarda orada düzəlişlər aparacaq.

Rusiyanın Mədəniyyət Nazirliyində internet vergisinin ödənilməsində təqaüdçülərə, əlillərə, məktəblilərə və tələbələrə güzəşt tətbiq edilməsi haqda məsələ müzakirə olunur.



Xarici ölkələrin təcrübəsi

# Slovakiya Respublikası: fiziki şəxslərin gəlir vergisi

***Güzəştlər.*** 2011-ci ildən əsas fərdi güzəştlər muzdlu işdən, sahibkarlıq fəaliyyətindən və digər müstəqil gəlirli fəaliyyətdən əldə edilən məcmu gəlirlərlə bağlı tələb olunur. Vergi ilində tələb olunan əsas fərdi güzəştlərin məbləği və aidiyyəti gəlirin hədləri vergi ilinin 1 yanvar tarixinə olan yaşayış minimumuna əsaslanır (bu, 2014-cü il üçün 198,09 avro təşkil edib). Vergiyə cəlb olunan məcmu gəlir aşağıda göstərilən illik fərdi güzəştlər qədər azaldıla bilər:

- məcmu illik gəlir 19.809 avroyadək olduqda 3.803,33 avro (yaşayış minimumunun 19,2 misli);
- məcmu illik gəlir 19.809 avrodan çox olduqda 8.755,58 avronun (yaşayış minimumunun 44,2 misli) məcmu gəlirin 1/4-i qədər azaldılmış hissəsi. Əgər nəticə mənfi rəqəm olarsa (misal üçün, məcmu illik gəlir 35.022,32 avrodan çox olarsa) əsas fərdi güzəşt tələb oluna bilməz.

Vergiyə cəlb olunan illik gəliri olmayan və ya məcmu gəlirləri 35.022,32 avrodan az olan ər/arvad rezident vergi ödəyicisi himayəsində olan ər/arvad üçün 3.803,33 avro (yaşayış minimumunun 19,2 misli) güzəşt tələb edə bilər. Ər/arvadın gəliri 3.803,33 avrodan az olarsa, güzəşt 3.803,33 avro ilə ər/arvadın faktiki gəliri arasındakı fərq kimi hesablanır: vergi ödəyicisinin vergiyə cəlb olunan illik gəliri 35.022,32 avrodan çox olarsa, güzəştlər tədricən sıfıra endirilir, illik gəliri 50.235,63 avrodan çox olan şəxslərə isə güzəşt tətbiq edilmir.

2014-cü il üzrə aktiv gəlirləri (muzdlu işdən, sahibkarlıq fəaliyyətindən və digər müstəqil gəlirli fəaliyyətdən əldə edilən gəlirlər) 2112 avrodan (minimum əməkhaqqının 6 misli) çox olan rezident vergi ödəyicisi onunla eyni evdə yaşayan hər uşaq üçün vergi güzəşti əldə edir. Məsələn, 2014-cü ildə yanvar-iyun ayları üzrə hər ay bir uşaq üçün 21,41 avro məbləğində güzəşt tələb oluna bilər.

***Vergi dövrü*** - təqvim ilidir.

Məcmu gəlirlərə daxil edilmiş gəlir əldə edən vergi ödəyiciləri vergi ilindən sonrakı ilin 31 mart tarixinədək gəlir vergisi bəyannamələrini təqdim etməlidirlər. Vergi orqanlarının yazılı bildirişinə əsasən, bəyannamələrin təqdim edilmə müddəti 3 ayadək müddətə uzadıla bilər. 3 aylıq müddətə uzatma yalnız vergi ödəyicisinin xarici mənbələrdən gəliri olduqda mümkündür. İllik gəlirləri əsas güzəştlərin 50%-dən çox olmayan vergi ödəyiciləri vergi bəyannamələrini yalnız zərərlərini bəyan etdikdə təqdim edirlər. Yalnız bir iş yerindən gəlir əldə edən şəxslər vergi bəyannaməsi təqdim etməyə bilərlər.

Vergi ödəyicisi ödəməli olduğu vergini hesablayaraq bəyannamədə göstərməlidir (özünüqiymətləndirmə).

***Vergilərin ödənilmə müddəti*** bəyannamənin təqdim edilmə müddəti ilə eynidir. Qanunvericilikdə başqa hal nəzərdə tutulmamışdırsa və ya vergi oqranı ilə başqa razılıq olmamışdırsa, ödəmə mənbəyində vergilər gəlir əldə edilən aydan sonrakı ayın 15-dək ödənilməlidir.

Məlum olan son vergi məbləği 2500 avro və ondan aşağı olan vergi ödəyiciləri istisna olmaqla, digər bütün vergi ödəyiciləri cari ödənişlər etməlidirlər. Ötənilki vergi öhdəliklərinin məbləğindən asılı olaraq, vergi ödəyiciləri cari ödənişləri rüblük və ya aylıq əsasda edirlər. Cari ödəmələr ötən ilin vergi öhdəlikləri əsasında, cari ödəmə öhdəliyinin yarandığı vergi dövründə mövcud olan vergi dərəcəsi tətbiq edilməklə hesablanır. Muzdlu işdən gəlir əldə edildikdə isə işəgötürən əməkhaqqı ödədikdən sonra vergi orqanlarına vergini 4 gün müddətində ödəməyə borcludur.

***Daşınmaz əmlak vergisi*** üç müxtəlif vergi növündən ibarətdir: torpaq vergisi, bina vergisi və mənzil vergisi. Bütün hallarda vergi öhdəliyi əmlakın əldə edildiyi ildən sonrakı ilin 1 yanvar tarixində yaranır və mülkiyyət hüququnun başa çatdığı ilin 31 dekabrında başa çatır.

Torpaq vergisinin ümumi dərəcəsi torpağın dəyərinin 0,25%-ni təşkil edir. Bina və mənzil vergisinin ümumi dərəcəsi onların sahəsinin hər kvadratmetrinə 0,033 avro təşkil edir. Bələdiyyə, yerli şəraitə uyğun olaraq, vergi dərəcələrini artıra və ya azalda bilər.

***Bank tərəfindən tutulmalar:*** 2012-ci il yanvarın 1-dən banklar haqqında xüsusi qanunla təşkil olunmuş Slovakiya banklarına və Slovakiya Respublikasında fəaliyyət göstərən xarici bankların filiallarına bank tərəfindən tutulmalar tətbiq edilir. Tutulmanın məbləği 0,1% (illik 0,4%) təşkil edir və hər rübün 25-ci günü ödənilməlidir. Tutulma bankın əvvəlki rübün sonunda yaranmış öhdəliklərinə əsasən hesablanır.

# Özbəkistanda siqaret və spirtli içkilərə yeni aksiz markaları tətbiq olunur

**Ölkədə alkoqol və tütün məhsullarının aksiz markalarını saxtalaşdırmadan qorumaq üçün markalar iki ildən bir təzələnir. Sonuncu dəyişdirilmə 2013-cü ildə olmuşdu.**

Bundan sonra köhnə nümunəli aksiz markası ilə markalanmış və hazırda topdan və pərakəndə satış şəbəkəsində dövriyyədə olan alkoqollu içkilər və tütün məmulatlarının aksiz markaları yeni nümunəli markaların tətbiqinə başlanmasından sonrakı 9 ay ərzində yenilənmədiyi halda, markalanmamış hesab ediləcək və müəyyən olunmuş qaydada satışdan çıxarılacaq.

Qeyd edək ki, Özbəkistan 2015-ci il yanvarın 1-dən ölkədə istehsal olunan alkoqollu məhsullara, spirtə və pivəyə aksiz vergisinin dərəcəsini artırıb. Məsələn, etil spirtinə, konyak, araq və digər tünd alkoqollu məhsulların 1 dekalitrinə aksiz 15% artıb. Təbii şəraba aksiz 5%, tündləşdirilmiş şəraba 10%, pivəyə 15% artıb.

Bundan başqa, ilin əvvəlindən Özbəkistanda alkoqollu içkilərin (pivə istisna olmaqla) topdan və pərakəndə satışının minimum qiymətləri artırılıb. Konyakın topdansatış qiymətləri 18,1%, pərakəndə satış qiymətləri isə 17,5% artıb. Araq və digər alkoqollu məhsulların minimal topdansatış qiyməti 15,4%, pərakəndə satış qiyməti 14,7%, şərabın topdansatış qiyməti 15,2% artıb.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord





**Yuxarıdan aşağı:** 1.Qiymətli kağızın, yaxud valyutanın məzənnə üzrə dəyəri ilə qarşılıqlı razılaşma əsasında vaxtından öncə ödəniş edilən dəyəri arasında fərq; 2.Rəssamın iş prosesində rəng qarışdırdığı nazik taxta parçası; 3.Əsas mövzunun dəfələrlə təkrarlanması və onların arasında müxtəlif məzmunlu epizodların növbələşməsinə əsaslanan musiqi forması; 4.Heyvan cinsi; 5.Tatarıstan Respublikasının paytaxtı; 6.Beynəlxalq abonent teleqrafının telefonlu rabitə şəbəkəsi; 9.Paytaxtımızda qəsəbə; 13.Hiss, həyəcan bildirən səs, nitq hissəsi; 15.Paleozoy erasının sonundan Kaynozoy erasının başlanğıcına qədər olan geoloji vaxt erası; 16.Azərbaycanın görkəmli heykəltəraşının adı. Cəfər Cabbarlının heykəlinin müəllifi; 17.Respublikamızın qərbində rayon; 18.Rus-Amerika yazıçısı, 2007-ci ildə ABŞ-da vəfat edib; 20.Şimal yarımkürəsində qitə; 21.Azərbaycan güləşçisinin adı. Yunan-roma güləşi üzrə 66 kq çəki dərəcəsində Olimpiya çempionu. **Soldan sağa:** 1.İspaniyanın futbol klubu; 5.Kəsməyən, iti olmayan; 7.XIX əsrin son illərində Mariya Küri və Pyer Küri tərəfindən uran və radium elementlərinin parçalanmasından alınmış kimyəvi element. Bu elementə M.Kürinin vətəni olan Polşanın şərəfinə ad verilib; 8.Ölkəmizdə fəaliyyət göstərən aviaşirkət; 10.Keçmişə uyğunluq, keçmişi təkrar yönümlü üslub; 11.Rusiyada Voya çayının sağ sahilində yerləşən şəhər; 12.Pulun real dəyəri ilə (əmtəə ekvivalenti ilə ölçülən) məzənnə dəyəri (xarici valyuta ilə müqayisədə) arasındakı mənfi fərq; 14.Yaponiyada şəhər; 19.Culfa rayonunda vulkan mənşəli andezit-dasit süxurlarından təşkil olunmuş dağ; 21.«Alma almaya bənzər» filmində Mehdi obrazını canlandıran aktyorun adı; 22.Bir sıra media mükafatları, fəxri diplomlar ilə təltif olunmuş azərbaycanlı şair və publisistin adı; 23.Osmanlı imperiyasında hökmdardan sonra ən yüksək rütbəli ikinci şəxs; 24.Rusiyada çay; 25.Görkəmli Azərbaycan aktyor və rejissoru, Azərbaycanın əməkdar incəsənət xadiminin soyadı. Ölkəmizin ilk peşəkar kino aktyorlarındandır.



*Pulcuqlular dəstəsinə aid heyvan cinsi*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Hikmət *(Nazim)*; 2.Şpandau; 3.Əlzəm; 4.Xəlifə; 5.Əcəmi *(Əbubəkr oğlu Naxçıvani)*; 6.İlhamə *(Quliyeva)*; 9.Adət; 13.Asya; 15.Roulinq *(Coan)*; 16.«Firuzə»; 17.Axirət ; 18.Maxaon; 20.Qrats; 21.Bundi. **Soldan sağa:** 1.Həştərxan *(xanlığı)*; 5.Əmi; 7.Klauzula; 8.Şərh; 10.Ərdəm; 11.Fideizm; 12.Buxar; 14.Start; 19.İlqayax; 21.Bluza; 22.Umac; 23.Franşiza; 24.Əks; 25.Qettinqen.


Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Milli komandamızın heyəti açıqlandı

Xəbər verdiyimiz kimi, aprelin 11-12-də ABŞ-ın Los-Anceles şəhərində sərbəst güləş üzrə dünya kuboku yarışları keçiriləcək. Sərbəst güləş üzrə Azərbaycan millisinin açıq məşqi zamanı dünya kuboku yarışlarında iştirak edəcək heyət açıqlanıb.




ABŞ-da ölkəmizi Yaşar Əliyev, Cəlal Süleymanov (57 kq), Hacı Əliyev (61 kq), Toğrul Əsgərov, Maqomed Muslimov (65 kq), Ruslan Dibirhaciyev (70 kq), Murad Süleymanov, Cəbrayıl Həsənov (hər ikisi 74 kq), Aleksandr Qostiyev (86 kq), Şərif Şərifov (97 kq) və Cəmaləddin Maqomedov (125 kq) təmsil edəcəklər.

Baş məşqçi Saypulla Absaidov və böyük məşqçi Firdovsi Umudovun rəhbərliyi altında mübarizə aparacaq milli komandamız «B» qrupunda İran, Belarus və Türkiyə yığması ilə qarşılaşacaq. Millimizin dünya kuboku yarışlarında güclü heyətlə çıxış edəcəyini bildirən Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti Namiq Əliyev bu turnirdən sonra yığmamızı daha ciddi sınaqların gözlədiyini diqqətə çatdırıb. Bildirilib ki, iki aydan sonra ölkəmiz birinci Avropa Oyunlarına ev sahibliyi edəcək. «Bakı-2015»dən iki ay sonra isə Las-Veqasda «Rio-2016» Olimpiya Oyunlarına lisenziya xarakterli dünya çempionatı təşkil olunacaq: «Məqsədimiz hər üç yarışda uğurla çıxış edib mükafatçılar sırasında yer almaqdır. Dünya kuboku yarışlarında milli komandamız favoritlərdən hesab edilir. Qrupda əsas rəqib İran millisidir. Ümid edirəm ki, güləşçilərimiz uğurla çıxış edib qrup birincisi olacaqlar».

# Güləşçilərin yeni reytinq siyahısı

*Dünya Güləş Birliyi (DGB) 2015-ci ilin martında keçirilən yarışların nəticələrinə əsasən, sərbəst güləş üzrə yeni reytinq siyasını açıqlayıb. Sərbəst güləşçilərimizdən 11-i DGB-nin reytinq siyahısında yer alıb.*

Son dünya çempionatının gümüş mükafatçısı Xetaq Qazyumov (97 kq) ötən ay keçirilən Aleksandr Medvedin xatirə turnirində qalib olaraq reytinqdəki mövqeyini qoruyub. Dünya çempionu Hacı Əliyev isə ötən ay yarışlara 65 kiloqram çəki dərəcəsində qatıldığına görə, reytinq siyahısında mövqeyində dəyişiklik baş verib. Belə ki, 61 kiloqram çəkidə ikinci olan H.Əliyev yeni çəkidə 12-ci sırada qərarlaşıb. Bundan başqa, ilk onluqda Məhəmməd Müslümov (65 kq, 4-cü pillə), Cəbrayıl Həsənov (74 kq, 9-cu) və Şərif Şərifovun (97 kq, 5-ci) da adları var.

# «Nakhchivan Open 2015» – beynəlxalq xatirə turniri

Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş nüfuzlu beynəlxalq «Nakhchivan Open 2015» açıq turnirində məşhur şahmatçıların iştirakı gözlənilir. Artıq bu mötəbər yarışda iştirak edəcəyini bildirmiş qrossmeysterlər arasında dünyada ən güclü şahmatçı qadın - çinli Hou İfan da var. Bu siyahıda birinci yeri isə fransalı qrossmeyster Etyen Bakro tutur.

Azərbaycan Şahmat Federasiyasının yaydığı məlumata görə, mayın 1-dən 10-dək keçiriləcək beynəlxalq «Nakhchivan Open 2015» şahmat festivalı çərçivəsində standart şahmat üzrə mürəkkəblik dərəcəsi müxtəlif olan üç turnir nəzərdə tutulur. İsveçrə sistemi üzrə keçirilən turnir 9 turdan ibarət olacaq. Partiyaların vaxt rejimi belədir: ilk 40 gediş üçün hər şahmatçıya 90 dəqiqə, bundan sonra isə partiya başa çatana qədər hər şahmatçıya 30 dəqiqə və hər gediş üçün əlavə 30 saniyə vaxt ayrılacaq.

Reytinq əmsalı 2250-dən yuxarı olan 52 şahmatçının, o cümlədən 26 qrossmeysterin iştirakı ilə keçiriləcək «A» turnirinin ümumi mükafat fondu 40.000 dollara bərabərdir (birinci mükafat 10 min dollar olacaq).

Xatırladaq ki, keçən il «A» turnirində 9 mümkün xaldan 6,5 xal toplamış rusiyalı məşhur qrossmeyster Boris Savçenko qalib gəlmişdi. Həmin turnirdə daha üç iştirakçının - Azərbaycan qrossmeysterləri Eltac Səfərli və Rauf Məmmədovun, habelə peterburqlu Aleksandr Şimanovun hər birinin aktivində eyni sayda xal vardı.

# Dünya Kubokunda bürünc medal

*Azərbaycan gimnastı Rumıniyada başa çatan bədii gimnastika üzrə Dünya Kubokunun növbəti mərhələsində bürünc medal qazanıb.*

Dörd finalın hamısına vəsiqə alan Azərbaycan yığmasının lideri Marina Durunda lentlə hərəkətlərə görə bürünc medala sahib olub.

Azərbaycan Gimnastika Federasiyasından bildiriblər ki, gimnastımız top və halqa ilə hərəkətlərə görə dördüncü yeri tutub, dörd çıxışın yekununa görə isə beşinci yerdə qərarlaşıb. Gürz və lentlə hərəkətlərdə finala çıxan Gülsüm Şəfizadə isə mükafata layiq yerlərin bir addımlığında dayanıb.

Rumıniya paytaxtında Dünya Kuboku yarışının növbəti mərhələsinə paralel olaraq beynəlxalq turnir keçirilib. Bu turnirdə Azərbaycan gimnastları Ayşən Bayramova və Jalə Piriyeva fərqləniblər.

Çoxnövçülükdə üçüncü yeri tutan, halqa və gürzlə hərəkətlərə görə iki gümüş medal qazanan senyorka Ayşən Bayramova yüksək nəticə göstərib. Jalə Piriyeva yuniyorkalar arasında dörd hərəkətin yekunlarına görə ikinci olub, habelə halqa ilə finalda ən yaxşı nəticə göstərib. Bundan əlavə, onun hesabında iki gümüş (top, ip) və bir bürünc (gürz) medal var.




mozaika

## Süni intellekt texnologiyaları

texnologiya

Bir milyard yarıma yaxın insanı cəlb edən «Facebook» və onun rəhbəri Mark Zukerberqin rəsmi səhifələrində yerləşdirilən məlumatlara görə, şirkətin süni intellekt sahəsində çalışan mütəxəssisləri «Yaddaş şəbəkəsi» adlı proqram hazırlayıblar. Bu sistem ən çətin suallara cavab verə biləcək. Sistemin məqsədi barədə ətraflı məlumat verilməsə də, belə düşünmək olar ki, proqram istifadəçiləri bilikləndirməyə, onlara maraqlı olan sualları cavablandırmağa yönəlib.

Bundan əlavə, şirkətin yaxın gələcəkdə tətbiq etmək istədiyi süni intellekt vasitəsilə video və şəkillərdəki təsvirləri izah etmək mümkün olacaq. Yəni istifadəçi videoda nəyin təsvir olunduğunu yazılı formada ekranda görəcək. San-Fransiskoda keçirilən «F8» «Facebook» İnkişaf Konfransında «Facebook» mütəxəssisləri bu sistemi də təqdim ediblər. Təqdimatda nümunə kimi göstərilən videoda qeyri-adi idman növləri müəyyən olunaraq adları ekrana çıxarılıb.

«Facebook» özünün pilotsuz uçan aparatını da təqdim edib. Mark Zukerberq profilində yazıb ki, dünyanın hər yerində, xüsusən də ucqar ərazilərdə interneti yaymaq üçün reallaşdırılan internet.org layihəsi çərçivəsində pilotsuz uçan aparat vasitəsilə insanlara interneti havadan təqdim etmək mümkün olacaq. Aparatın sınaqları artıq Böyük Britaniyada uğurla həyata keçirilib. Şirkət rəhbərinin yazdığına görə, aparatın ölçüləri «Boeing 737» təyyarəsi böyüklükdə, çəkisi isə ondan az olacaq. Günəş batareyaları ilə işləyən aparat 18 kilometr hündürlükdə uçmaqla bir dəfəyə havada bir neçə ay qala biləcək.

«Facebook»un Süni İntellekt Laboratoriyasının direktoru Yan Lekun müsahibələrinin birində süni intellektin əsasında duran laylı neyron şəbəkəsi texnologiyasını «dünyanı təsvir etməyi öyrənən maşınlar» kimi izah edib. Onun sözlərinə görə, mürəkkəb laylı təhlil sisteminə əsaslanan bu texnologiya foto və videolardakı təsvirlərin izahını verə bilir. Yəni, deyək ki, siz tanımadığınız bir heyvan fotosunu görürsünüzsə, sistem sizə onun adı, eləcə də hansı ərazilərdə yaşadığı, necə qidalandığı və s. haqqında məlumatlar çatdıracaq. Əgər «Facebook» bu sistemi öz şəbəkəsində tətbiq edəcəksə, burada qeydiyyatdan keçən istənilən şəxsin fotosunu görüb onun haqqında məlumat almaq mümkün olacaq. «Facebook»un yaradıcıları süni intellekt texnologiyalarının tətbiqinin insanlar arasında kommunikasiyanı daha asan etmək üçün nəzərdə tutulduğunu vurğulayırlar. Bu sistem vasitəsilə istifadəçinin yazdığı şərhlər, paylaşdığı foto və videolar təhlil edilir, maraq dairəsi müəyyənləşdirilir və sonra onun səhifəsində həmin maraqlara uyğun xəbərlər, foto və videolar görünməyə başlayır.

Müşahidəçilər isə bəşəriyyətin getdikcə süni intellektdən asılılığına doğru getməsindən danışmağa başlayıblar. Hətta fantastik fərziyyələr də səslənir ki, bir gün məşhur «Terminator» filmindəki kimi, robotlar Yer kürəsini zəbt edəcək. Xüsusən də bunun getdikcə genişlənməkdə olan «Facebook»da tətbiqi - yarızarafat-yarıgerçək - bədbin rəylərə səbəb olub. Proqnozlar nə qədər qorxunc olsa da, dəqiq olan odur ki, Zukerberq «Facebook»u həyatın istənilən sahəsini əks etdirən virtual məkana çevirmək niyyətindədir.

## Ceyranların sayı artır

fauna



«Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası» layihəsi çərçivəsində Ağgöl Milli Parkının ərazisinə müxtəlif vaxtlarda 21 baş ceyran buraxılıb. Aparılan müşahidələr nəticəsində hazırda bu ərazidə ceyranların sayının 40-a yaxın olduğu müəyyənləşdirilib. Həyata keçirilən monitorinqlər, aparılan tədqiqatlar sübut edir ki, ceyranların bu əraziyə yayılması və iqlimləşməsi prosesi uğurla davam edir.

Ağgöl Milli Parkının direktoru Loğman Mehdiyev bildirib ki, ceyranların təhlükəsizliyinin təmin olunması məqsədilə ərazidə 2 nəzarət məntəqəsi tikilib, Heydər Əliyev Fondu tərəfindən hazırlanmış maarifləndirici və qadağanedici lövhələr yerləşdirilib. Milli parkın yaxınlığında yerləşən yaşayış məntəqələrində əhali arasında maarifləndirmə işləri də aparılır. Görülən tədbirlər ceyranların sayının artmasına əlverişli şərait yaradır.

sağlam hayat tarzi

## Sarımsaq

*Sarımsağın tərkibində maqnezium, B 6, C, B 1 vitaminləri, kalsium, fosfor və mis var. Sarımsaq xolesterini və təzyiqi aşağı salır, ürək və damar sağlamlığını qoruyur, infarkt riskini azaldır, tərkibində olan allogenik sayəsində qanın laxtalanmasının qarşısını alır.*

Antibakterial xüsusiyyəti sayəsində bakteriya və virusların səbəb olduğu xəstəliklərin sağalma prosesini sürətləndirir. Bağırsaq və mədə xərçəngi başda olmaqla, xərçəngin bir çox növündən qoruyur. Mədə qazına yaxşı təsir edən bu qida həzmi də asanlaşdırır.

Bahar ayları tipik olan soyuqdəymədən qorunmaq üçün də olduqca təsirli qidadır. İmmun sistemini gücləndirir və bədənin müqavimətini artırır.

Ancaq sarımsağın qanı durulaşdırıcı təsiri olması səbəbindən təzyiqi normadan aşağı olan insanlar bu qidadan uzaq durmalıdırlar. Çünki qan təzyiqi aşağıdırsa, sarımsaq təzyiqi daha da aşağı salaraq insanın halsız olmasına, hətta huşunu itirməsinə səbəb olar. Yüksək təzyiqin müalicəsi üçün müntəzəm dərman istifadə edənlər bu qidanı həkimlə məsləhətləşərək qəbul etməlidirlər.

Bəzi insanlar sarımsağı gündəlik həyatlarında sevə-sevə, həm də bol-bol



yeyirlər. Sarımsaq faydalı olsa da, həddindən artıq istifadə etmək yorğunluğa səbəb olur. Xüsusilə qan azlığından (anemiya) şikayəti olanlar çiy sarımsaq qəbulundan uzaq durmalıdırlar.

Bəs sarımsaq qoxusunu necə aradan qaldırmaq olar? Süd içdikdə sarımsağın qoxuya səbəb olan maddələri bağırsaqda bölünmür. Bu səbəbdən də tər və ya nəfəslə xaric olunmur. Əgər sarımsağı yeyərkən süd içməmisinizsə və ağızdan xoşagəlməz qoxu gəlirsə, onu xalq təbabəti üsulları ilə aradan götürmək olar. Məsələn, sarımsaq yedikdən sonra qoz ləpəsini çeynəmək və yetərincə əzildikdən sonra tüpürmək lazımdır. Bunu 2-3 dəfə təkrarladıqda yaxşı effekt verir.

Sarımsağın iyini aradan götürmək üçün yeməkdən sonra cəfərinin gövdəsini, yarpaqlarını və ya köklərini çeynəmək olar.

Limon, portağal və ya narıncı qabığı çeynəməyin də faydası var. Mixək, darçın çeynəmək də sarımsaq qoxusunu aradan götürür.

## Marsa uçuşun ilkin mərhələsi

kosmos

*ABŞ-ın Aerokosmik Agentliyi - NASA 2025-ci ildə asteroid üzərinə astronavt göndərəcək. Qurumun direktor müavini Robert Laytfut bildirib ki, astronavtları Ayın orbitinə yaxın gətiriləcək asteroidin fraqmenti üzərinə göndərmək nəzərdə tutulub. Bu məqsədlə pilotlu «Oiron» kosmik gəmisi istifadə olunacaq.*

Amerikalı mütəxəssislər 2020-ci ildə müəyyən bir asteroidə uçan aparat göndərərək onun üzərindəki bir fraqmenti Yerin süni peyki olan Ayın orbitinə tərəf gətirəcəklər. Bu proses 5 il vaxt aparacaq. Yalnız bundan sonra astronavtlar həmin asteroid parçasına doğru uçacaqlar.

Layihənin dəyəri 1,25 milyard dollardır. NASA hesab edir ki, bu layihə insanın 2030-cu ildə Marsa uçuşunu həyata keçirmək üçün ilkin mərhələ olacaq.

**Müdriklər deyib ki...**

***«Dar düşüncəli insanlar çatışmazlığı yalnız başqalarında görürlər».***

**Cek London (1876-1916)**

